www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30-31 may 2015-ci il Şənbə № 116 (6144) Qiyməti 40 qəpik

**Xəbər**

**Parlamentdə gərginlik: iqtidar deputatı Ziya Məmmədovu hədəfə aldı**

yazısı səh.10-da

**Gündəm**

## Azərbaycan xarici siyasət kursunu dəyişir?



İqtidarın Moskva-Vaşinqton-Brüssel seçimi qarşısında ağırlığı Kremlə verdiyi barədə iddialar artıb; "Stratfor": "Son görüşlərin tonu və xarakteri ölkəni Rusiyaya doğru meyllənmiş kimi göstərir"

yazısı səh.8-də

## Müstəqil mediaya qarşı reklam ayrı-seçkiliyi davam edir

yazısı səh.12-də

*Deputat Ağalar Vəliyev:*

## "Yanan binanı dədə-baba variantı ilə təmir edəcəyik"

yazısı səh.5-də

## "Kapital Bank"da rəhbər dəyişikliyi: adi rotasiya, yoxsa...

yazısı səh.12-də

## "Gəncəbank"ın rəhbəri 2 vəkili məhkəməyə verdi

yazısı səh.15-də

## İƏT erməni təcavüzü barədə qətnamə qəbul etdi

yazısı səh.9-da

## Yanan binada kompensasiya qalmaqalı

yazısı səh.11-də

*Novella Cəfəroğlu:*

## "Yüz faiz əfv olacaq"

yazısı səh.11-də

## "Lənkəranski" "Ded"in qətlindən suçsuz çıxdı...

yazısı səh.15-də

## Deputatın oğlu və kürəkəni barədə mübhəm xəbərlər...

yazısı səh.11-də

## Kinodramaturq Eldəniz Quliyev küçə süpürür...

yazısı səh.2-də

## KXCP üzvünü öldürənlərə üst-üstə 232 il cəza tələb olundu

yazısı səh.14-də

### Sabiq nazir haqda yeni sensasion məlumatlar: "siyasətə qoşulub..."

# FƏRHAD ƏLİYEV ALMANİYADAN SIĞINACAQ ALDI

Keçmiş iqtisadi inkişaf naziri və qardaşı Almaniyadan sığınacaq alsalar da, başqa ölkədə yaşamağa üstünlük verirlər; həbsdən çıxdıqdan sonra siyasətə qoşulmayacağına dair vəd verən milyarder yenə Cəmil Həsənlinin yanında - bu dəfə də gizli...




yazısı səh.5-də

# Qarabağda yeni müharibə xəbərdarlıqları

Bakı-Moskva anlaşmasının uzanmasının daha bir mühüm nədəni; rusiyalı nüfuzlu hərbi ekspertin "Savaş Moskvasız da alovlana bilər", "Yayda müharibə başlayacaq" tipli bəyanatları nəyə işarədir?

yazısı səh.9-da



*Pənah Hüseyn:*

## "Bəzi məmurlar canlarını və mallarını qurtarmaq üçün hər cür təxribata gedə bilər"

yazısı səh.4-də



## Söyün Sadıqovdan Polad Bülbüloğluna sərt sözlər

yazısı səh.3-də



*Hacı İbrahim Nehrəmli:*

## "İçəridə mənə qarşı heç bir kobudluq olmadı"

yazısı səh.6-da




## Anar Məmmədovun prezidentin rəsmi qəbulunda nə işi varmış?

### Ziya Məmmədovun oğlunu deputat etmək istəyi hakimiyyət daxilində narazılıqla qarşılanıb; "Hər nazir öz oğlunun əlindən tutub ora gətirsə..."

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov mayın 27-də "Buta" sarayında Respublika Günü ilə bağlı keçirilən rəsmi qəbulda iştirak edib. Nazir oğlunun ali dövlət tədbirinə qatılması diqqətdən yayınmayıb. Nazir oğlunun bu cür törəndə hansı statusla iştirakı sual yaradıb. Bu haqda musavat.com-u bilgiləndirən mənbə deyir ki, A.Məmmədovun o tədbirdə iştirakı hakimiyyət daxilindəki qıcıq və etiraz doğurub. Onun rəsmi qəbulda iştirakına narazılıq edənlərin əsas arqumenti təxminən bu cürdür: "Belə çıxır ki, Ziya Məmmədov kimi başqa nazirlər də öz oğlanlarının əlindən tutub belə tədbirlərə gətirsin. Bəs o zaman protokol, qaydalar harda qaldı?!"**

Mənbəmiz iddia edir ki, Anar Məmmədovun tədbirdə iştirakı ilə bağlı öncədən razılıq olmayıb. Sadəcə, Z.Məmmədov öz əlaqələrindən istifadə edərək oğlunun tədbirdə iştirakını təmin edə bilib. Xəbər qaynağımız onu da bildirir ki, "Buta"da keçirilən rəsmi dövlət tədbirində A.Məmmədov üçün oturmağa yer olmayıb. O, xarici səfirliklərin nümayəndələri, hərbi atteşelər üçün nəzərdə tutulan masada əyləşdirilib.

Bəzi müşahidəçilər iddia edir ki, Ziya Məmmədov oğlunun deputat olmasına çalışır. Məmmədovlar ailəsini növbəti parlamentdə Anar Məmmədovun təmsil edəcəyi haqda söz-söhbət dolaşır. Ona görə də Z.Məmmədov övladını bu cür tədbirlərə gətirməklə onun indidən təqdimatını etməyə çalışır.

Z.Məmmədovun bu cür təqdimatının ona və oğluna xeyir gətirib-gətirməyəcəyi isə yaxın aylarda bilinəcək.

❑ Cavanşir ABBASLI

## Xarici təşkilatlar İntiqam Əliyevin səhhətindən narahatdır

### Hüquq müdafiəçisi 3 həftə aradan sonra ailəsi ilə görüşüb; HMC rəhbəri səhhətinin ictimailəşməsini istəmir

**Hazırda həbsdə olan Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin səhhətində yaranan problemlər həyatı baxımından təhlükəli həddə çatıb. Bel ağrılarından ciddi əziyyət çəkən hüquq müdafiəçisinin vəkillərinin müraciətinə baxmayaraq, o, tibb məntəqəsinə köçürülməyib.**

Artıq nüfuzlu xarici təşkilatlar İ.Əliyevin səhhəti ilə bağlı narahatlıqlarını bildirirlər.

**"Freedom House" hüquq-müdafiə təşkilatı** HMC rəhbərinin səhhətinin pisləşməsi ilə əlaqədar bəyanat verib. Bəyanatda Azərbaycan hakimiyyətindən hüquq müdafiəçisinə tibbi yardım göstərilməsi tələb olunur: "Azərbaycan hakimiyyətinin uydurma ittihamla 7 il yarım azadlıqdan məhrum edilmiş hüquq müdafiəçisi İntiqam Əliyevə tibbi yardım göstərməkdən imtina etməsi qeyri-insani davranışdır. Hazırda belindəki xəsarət səbəbindən o, otura və normal hərəkət edə bilmir ki, bu da ona böyük əziyyət verir. İntiqam Əliyevlə bu cür rüsvayçı davranış 2009-cu ildə Rusiyada Sergei Magnitskynin işini xatırladır. Odur ki, biz Azərbaycan hakimiyyətindən tələb edirik ki, bütün digər siyasi məhbuslar kimi İ.Əliyev dərhal zəruri tibbi yardımla təmin edilsin".

**İntiqam Əliyevin vəkili Fəxrəddin Mehdiyev onunla mayın 27-də görüşdüyünü bildirdi:** "İntiqam müəllim bu məsələnin qabardılmasını istəmir. Mayın 27-də görüşərkən mənə dedi ki, onu sevən insanlar narahat olur. İstəmir ki, kimsə ona görə narahat olsun. Səhhətində problemlər mövcuddur və qalmaqda davam edir. Görüşümüzdə apelyasiya şikayəti ilə bağlı müəyyən müzakirələr oldu. Bilirəm ki, onun səhhəti yaxşı deyil. Hesab edirik ki, bu məsələni ictimailəşdirmək vacibdir. Müəyyən müalicələr olur. Amma o şəraitdə bu müalicələrin effekti yoxdur. Narahatlığı hiss edirdim. Oturanda, gəzəndə daha çox hiss olunur. Təcridxanada heç bir müalicədən söhbət gedə bilməz. Ümumi saxlanma şəraitindən elə də ciddi narazılığı yoxdur. Apelyasiya şikayətini çoxdan vermişik. Yəqin ki, yaxın günlərdə bizə məlumat veriləcək".

**Hüquq müdafiəçisinin qızı Nərmin Kamilsoy atası ilə mayın 28-də görüşdüklərini söylədi:** "3 həftə aradan sonra atamla görüşdük. Səhhətində, xüsusilə belində ciddi problemlər var. Uzun müddət eyni vəziyyətdə qala bilmir. Şüşə arxası görüşdük. Hündür olduğuna görə ayaqüstü danışmağa məcbur idik. Amma atam tez-tez otururdu. Ayaqüstə dayana bilmirdi. Vəkillərin müraciətlərinə baxmayaraq, tibb məntəqəsinə köçürülmədi. Müalicə kamera şəraitində getdi və bunun üçün heç bir effekti olmadı. Görüşümüz iki saat çəkdi. Atam həmişə olduğu kimi, yenə də səhhətindəki problemlərin qabardılmasını istəmir. Onunla bağlı narahat olan insanlara təşəkkürünü bildirdi".

❑ Cavanşir ABBASLI

# İlham Əliyevdən sensasion bəyanat

**Azərbaycan qazının Avropa bazarına çıxışını əngəlləməyə yönəlmiş intriqalara cavab olaraq prezident İlham Əliyev gözlənilməz bəyanatla çıxış edib. Virtualaz.org saytı xəbər verir ki, prezident mayın 27-də rəsmi qəbul keçirərkən ilk dəfə Transadriatik Qaz Kəməri (TAP) layihəsinin həyata keçirilməsində problem yarana biləcəyinə işarə edib. Eyni zamanda İlham Əliyev xəbərdarlıq edib ki, əgər TAP layihəsinə bu və ya digər problem yaranarsa, Azərbaycan vəziyyətdən Türkiyəyə daha çox qaz satmaqla çıxacaq.**



"Ümid edirəm ki, TAP qarşısında hər hansı süni maneə meydana çıxmayacaq, ancaq belə əngəllər meydana çıxsa, əlbəttə ki, bundan udan tərəf olmayacaq"- deyə prezident xəbərdarlıq edib. İlham Əliyev əlavə edib ki, Azərbaycan qazının bazarlara çıxarılması üçün *(hansı bazarlardan söhbət getdiyi dəqiqləşdirilməyib, ancaq tamamilə aydındır ki, söhbət Avropa bazarından gedir)* konkret addımlar atılır: "Hər halda, qeyd etməliyəm ki, bizim bazarlara çıxışımızla bağlı heç bir narahatlıqlarımız yoxdur. Əgər TAP layihəsində bu və ya digər problem yaranarsa, o zaman biz Türkiyə bazarına daha çox qaz ixrac edəcəyik. Hesab edirəm ki, biz qarşımıza qoyulan məqsədlərə vaxtında, ola bilsin daha tez çata biləcəyik. Sadəcə olaraq, TAP layihəsinin bütün iştirakçıları məsuliyyətli olmalıdır və süni problemlər yaratmamalıdır".



## Eldəniz Quliyev küçə süpürür

**Ziyalılar Birliyinin rəhbəri, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü, kinodramaturq Eldəniz Quliyev məhkəməyə müraciət edib. O, Nəsimi rayon 14 saylı mənzil-istismar sahəsində 480 saatlıq ictimai işə cəlb olunması barədə məhkəmə qərarının ləğvini istəyir. Nəsimi Rayon Məhkəməsi həmin qərarı daxili işlər naziri Ramil Usubovun iddiasına əsasən keçən ilin oktyabrında çıxarıb, apreldə Apelyasiya Məhkəməsi qərarı qüvvədə saxlayıb. Məhkəmə Eldəniz Quliyevin 1000 manat ödəməsi haqda da qərar çıxarıb. Bundan başqa onun ölkədən çıxmasına da yasaq qoyulub. E.Quliyevin müraciəti üzrə məhkəmə isə iyunun 1-də olacaq.**

Eldəniz Quliyev AzadlıqRadiosuna müsahibəsində 10 günə yaxındır küçə süpürdüyünü deyib: "Artıq 10 günə yaxındır ki, mən hər gün Nəsimi rayonundakı 14 saylı mənzil-istismar sahəsinə gedirəm. Orada məni sanitar işlərlə məşğul olmağa cəlb ediblər. Hər gün saat 4-də gedib 4 saat bu işlə məşğul olmalıyam. Mən də gedirəm. Hər hansı bir iş olarsa, yerinə yetirirəm".

**E.Quliyev bu vaxta qədər gördüyü işlərdən də danışıb. Deyib ki, ona hər gün də olmasa, hər halda, iş tapılır və süpürgəçiliyi də yaxşı öyrənib:** "Bu 10 günün içində peşəkarcasına küçə süpürməyi öyrənmişəm. Hər gün də olmasa, günaşırı bir iş tapırlar. Amma bunlar bəzən az qalır məni nəzarət altında işlətsinlər. Mən mətbuata xəbər vermirəm və bu işi görməkdən qətiyyən çəkinmirəm. Hesab edirəm ki, insan mübarizədə bərkiyir. Bu da mübarizənin bir formasıdır".

❑ E.SEYİDAĞA

## Elton Məmmədov: "Musa Quliyev ağzına gələni danışmasın"


Elton Məmmədov

**Milli Məclisin dünənki iclasında deputat Musa Quliyev həmkarı Sabir Rüstəmxanlının Gəncədə Məmməd Əmin Rəsulzadənin abidəsinin başına çuval keçirilməsi və onun təhqir edilməsi ilə bağlı səsləndirdiyi fikirlərə etiraz edib. O bildirib ki, Rəsulzadənin başına çuval keçirildiyi və baxımsız vəziyyətdə olduğu bağ Gəncə İcra Hakimiyyətinə heç bir aidiyyəti yoxdur: "O bağ Nəqliyyat Nazirliyinin balansındadır. Əgər Sabir Rüstəmxanlının ürəyi yanırsa, nəqliyyat naziri onun qudasıdır, gedib ondan xahiş etsin və o parkı təmir etdirsin".**

Məsələ ilə bağlı Ziya Məmmədovun qardaşı, deputat Elton Məmmədov həmkarına reaksiya verib. O, aznews.az-a deyib ki, M.Quliyev belə fikirlər səsləndirməklə əslində, öz işi ilə məşqul olmadığını göstərir və çox böyük yanlışlıqlara yol verir: "O getsin, dövlətin siyasətinə qulluq etsin, kiminsə arasına girib, belə əsassız söhbətləri danışmasın. Musa Quliyevin o sözlərinin heç bir əsası yoxdur. Hüquqi nöqteyi-nəzərdən araşdırsın və görsün ki, həmkarının dediyi bir məsələnin nəqliyyat nazirinə aidiyyəti var, yoxsa yox. Yoxdursa, ağzına gələni danışmasın. O, dövlət adamıdır, Milli Məclisin üzvüdür, belə söz ona yaraşmaz".

## QHT Şurası Avropa Oyunlarına dair müzakirələr keçirəcək

**1 iyun 2015-ci il, saat 12:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirilən I Avropa Oyunları və ictimai davranış qaydalarına aid QHT layihələrinin icra vəziyyəti müzakirə olunacaq.**

Toplantıda məqsəd I Avropa Oyunlarına ictimai dəstəyin, eyni zamanda layihələrin koordinasiyasının, media ilə əlaqələrin qurulmasının, effektiv idarəçiliyin təmin olunmasıdır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Rövnəq Abdullayevin də olduğu binada terror həyəcanı

**İsveçrənin Sürix şəhərində AFFA prezidenti Rövnəq Abdullayevin də iştirak etdiyi FİFA-nın 65-ci konqresi keçirilən binaya bomba qoyulması barədə xəbərlər yayılıb. "Qafqazinfo" xəbər verir ki, bu barədə məlumatı Almaniya mətbuatı yayıb. Sonra Sürix polisi də məlumatı təsdiqləyib. FİFA-nın konqresinin keçirildiyi bina axtarış üçün boşaldılıb. Axtarışdan sonra bomba ilə bağlı iddiaların əsassız olduğu ortaya çıxıb. Salonu tərk edənlər yerinə qayıdıb və toplantı davam edib.**

## Bu gün Bakıda mitinq olacaq

### Müxalifət partiyasının sədri Milli Şuraya mitinq üçün yer ayrılmasına etiraz etdi

**Bu gün Milli Şura "Yalana və talana son" şüarı ilə mitinq keçirəcək. Mitinqə Bakı Şəhər İcra Hakimiyyəti razılıq verib. Saat 15.00-dan 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) keçirilməsi nəzərdə tutulan mitinqdə 10 min adamın iştirak edəcəyi AXCP sədrinin müavini Fuad Qəhrəmanlı tərəfindən bəyan edilib. Fuad Qəhrəmanlının sözlərinə görə, mitinqdə əvvəlki şüarlar öz aktuallığını qoruyacaq.**

Bu mitinqdə həmçinin 19 may tarixində Bakı şəhərində binada baş vermiş yanğında həlak olan şəxslərə görə günahı olan şəxslərin tapılıb məsuliyyətə cəlb olunması da tələb olunacaq.

Milli Şuranın sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli, istiqlalçı deputat İbrahim İbrahimli isə 30 may mitinqi ilə bağlı xalqa müraciət edib, hər kəsi mitinqə qoşulmağa çağırıblar.

Bu arada AMİP sədri Yusif Bağırzadə Milli Şuranın mitinqinə qarşı sərt açıqlama ilə çıxış edib. Yusif Bağırzadə APA-ya açıqlamasında deyib ki, Milli Şura yaranan gündən xarici qüvvələrin təsiri altındadır və onlar tərəfindən idarə olunur. Ona görə də AMİP bu mitinqdə iştirak etməyəcək.

**Y. Bağırzadə Milli Şuranın rəsmi qeydiyyatdan keçmədiyini xatırladıb və rəsmi qeydiyyatdan keçməyən quruma Bakı Şəhər İcra Hakimiyyətinin mitinq üçün şərait yaratmasına qarşı çıxıb:** "Mən bir məsələni anlaya bilmirəm, Bakı Şəhər İcra Hakimiyyəti rəsmi qeydiyyatda keçməyən bir təşkilatın mitinqlə bağlı müraciətinə niyə cavab verir? Mən hesab edirəm ki, qeydiyyatdan keçməyən təşkilata Bakı Şəhər İcra Hakimiyyəti mitinq üçün yer ayırmamalıdır".

Milli Şuradan isə Yusif Bağırzadənin hakimiyyətə xoş gəlmək üçün belə danışdığını və danışarkən savadsızlığını ortaya qoyduğunu bildiriblər. Qeyd edilib ki, BŞİH-ə mitinq üçün müraciət Milli Şuranın yox, təşkilatçı kimi konkret fərdlərin adından olur.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Söyün Sadıqovdan Polad Bülbüloğluna sərt sözlər

**Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos"un aprelin14-də seçilmiş yeni sədri Söyün Sadıqov təşkilat və onun ətrafındakı son durumdan danışıb. Açıqlamasında o, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun bostanına növbəti dəfə daş atıb.**

## "AzerRos" prezidenti yenə od püskürdü; "Məni Abbas Abbasovla Polad Bülbüloğlu tanış edib, Abbasov səfirin yanına yox, Bülbüloğlu daim onun yanına, "Praqa" restoranına gedirdi..."

Xatırladaq ki, ötən ay o, səfir Bülbüloğlunu baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovla "eyni qayıqda yer almaqda" günahlandırmışdı. Ancaq maraqlıdır ki, səfirlikdən bu ittihamlara indiyədək reaksiya gəlməyib. Sadıqov budəfəki açıqlamasında öncə diaspor üzvlərindən olan Mirəşrəf Fətiyevin bu yaxınlarda Azərbaycan nəşrlərindən birinə verdiyi müsahibədə onun haqqında dediklərinə toxunub.

**"AzerRos" rəhbəri deyib:** "Mən indi Mirəşrəf müəllimə müraciət edərək soruşmaq istəyirəm: doğrudanmı o, Azərbaycandakı son prezident seçkiləri zamanı özü səfir Polad Bülbüloğlunun məni Azərbaycan xalqının və dövlətinin düşməni kimi təqdim eləməyə yönəlik qara piar kampaniyası haqda xoş niyyətlə xəbərdar etdiyini unudub? Hələ o zaman o, Səftər Əzimovun yanında üzrxahlıqla etiraf eləmişdi ki, Polad Bülbüloğlu onu mənə qarşı çıxmağa məcbur edib, əks təqdirdə, Azərbaycandakı biznesində problem yaranacağı ilə hədələyib. Odur ki, fikrimcə, indi heç nə dəyişməyib. Cənab Fətiyev və onun kimilər növbəti dəfə Polad Bülbüloğlunun əlində mənə qarşı alətə çevriliblər".

**Sözünə davam edən "AzerRos" prezidenti deyib:** "Kim də olmasa, Mirəşrəf müəllim yaxşı bilməlidir ki, 2013-cü ilədək (o vaxtadək qurumun prezidenti Sadıqov olub - red.) "AzerRos" həmişə Rusiyadakı azərbaycanlıların maraqlarına, Rusiya-Azərbaycan dostluğuna və ölkəmizin Rusiyadakı təbliğinə xidmət edib. Mən səfir Polad Bülbüloğlunun tədbir və dostluq görüşlərində şərəfli yerlərdə oturan ictimai xadimlərdən biri olmuşam və səfir bunu həmişə yüksək qiymətləndirib. Bir nümunə deyim: Moskvada Bauman bazarının tavanı çökəndə çoxlu sayda həmvətənimiz zərər çəkmişdi. "AzerRos" və bizim komandamız o vaxt ilk olaraq insanların köməyinə gəldi və Moskvanın ozamankı meri Yuri Lijkovdan tələb elədi ki, şəhər rəhbərliyi zərərçəkənlərlə bağlı bütün xərcləri öz üzərinə götürsün. Səfirin yəqin ki, yadındadır, necə o, mənə zəng edib prezident İlham Əliyevin, səhiyyə naziri Oqtay Şirəliyevin və şəxsən öz adından şifahi minnətdarlıq çatdırdı. Belə nümunələr çoxdur".

**Abbas Abbasovla münasibətlərindən söz açan Söyün Sadıqov onunla 2012-ci ilin fevralınadək tanışlığı olmadığını söyləyib:** "2012-ci ildə Rusiyadakı prezident seçkiləri ərəfəsində bizi Ümumrusiya Azərbaycanlıları Konqresinin indiki icraçı direktoru İlqar Hacıyev, diasporun müəyyən dairələrində tanınan Natiq Ağamirov və səfir Polad Bülbüloğlu tanış edib. O zaman mən aydın şəkildə gördüm ki, səfirlə Abbas Abbasov arasında necə isti münasibətlər var. Axı Abbasov səfirin yanına yox, Bülbüloğlu daim onun yanına, "Praqa" restoranına gedirdi. Məhz Bülbüloğlu "AzerRos" Ağsaqqallar Şurası sədrliyinə Abbasovun namizədliyini irəli sürmüşdü. Halbuki mən hələ 2013-cü ilin əvvəlində Abbas Abbasova münasibətdə öz narahatlığımı və şübhələrimi ortaya qoymuşdum".



Söyün Sadıqov



Polad Bülbüloğlu



Abbas Abbasov

**"Abbas Abbasovun natəmiz fəaliyyəti barədə açıq çıxış eləmişəm. Azərbaycanın səfiri isə hesab edir ki, həqiqət Abbasovun tərəfindədir. Bu da söyləməyə əsas verir ki, səfir hələ də köhnə dostunu müdafiə edir və ya ondan qorxur..."**

**Sadıqov səfirə qarşı ittihamlarını davam etdirir:** "Bu gün də səfir Abbas Abbasovun çirkin siyasi oyunlarına və təşkilatımızı basqınçı formada zəbt etməsinə qarşı çıxan həmvətənlərimizin əksəriyyətini müdafiə eləmək əvəzinə, mənə qarşı təzədən qara kampaniya başladıb. Mən Abbas Abbasovun natəmiz fəaliyyəti barədə açıq çıxış eləmişəm. Azərbaycanın səfiri isə nədənsə hesab edir ki, həqiqət Abbasovun tərəfindədir. Bu da söyləməyə əsas verir ki, səfir hələ də köhnə dostunu müdafiə edir və ya ondan qorxur. Mən ondan xahiş edirəm: məni yox, öz həmvətənlərini və azad seçimi dəstəkləsin. Səfirliyin konsul şöbəsində həmvətənlərimizin hansı çətinliklərlə üzləşdiyi heç kimə sirr deyil. Səfir öz xalqı ilə birgə olmalıdır. O elə bundan ötrü də burada - Rusiyadadır... Abbas Abbasov öz çirkin siyasi oyunları və intriqaları ilə kənarda qalıb, səfir isə mübarizəni mənimlə aparır. Abbasov tərəfindən mənimsənilmiş təşkilatın "legitimliyini" sübut etməyə çalışır. Bilirsiniz, biz böyük həvəslə Azərbaycanda dövlət əleyhinə cinayət törətmiş adamların son həbsi xəbərini izləyirik. Çox ümid edirik ki, növbə Rusiyada yaşayan, vətəndən uzaqda olsa belə, hələ də öz xalqına, dövlətinə xəyanət eləmiş Azərbaycan vətəndaşlarına da çatacaq".

***

Xatırladaq ki, "Milyarderlər İttifaqı" kimi tanınan Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqının (RATİ) əsas fiquru sayılan Abbas Abbasov "AzerRos"da parçalanmanın əsas baiskarı sayılır. O, 2013-cü il prezident seçkiləri zamanı tutduğu məlum mövqe ilə Azərbaycan iqtidarı ilə körpüləri yandırıb.

**P.S.** *Yazı ilə bağlı cənab səfirin mövqeyini də cavab haqqı olaraq dərc etməyə hazırıq.*

❑ **Siyasət şöbəsi**

# Həbsdəki oliqarxlar niyə azad olundu?

## Məsələyə iqtisadçı ekspertlərin və iqtidaryönlü deputatın yanaşması fərqlidir...

**Hökumət həbs olunan oliqarxları bir-bir azad edir. Ötən gün Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılan "Avesta" konserninin prezidenti, iş adamı Hacı İbrahim Nehrəmli sərbəst buraxılıb. Bundan əlavə, Bakının Nərimanov Rayon Məhkəməsi iş adamı Nizami Piriyev barəsində həbs-qətimkan tədbirini dəyişib. Həbsdən çıxan hər iki iş adamı vaxtı keçmiş kreditlərini ödədiklərini və digərlərini ödəmək barəsində öhdəlik götürdüklərini deyiblər.**



Hacı İbrahim Nehrəmli mətbuata bildirib ki, onunla bağlı işlər qaydasındadır, "Avesta" konserninin ləğv olunması, ya satılması ilə bağlı yayılan xəbərlər isə həqiqəti əks etdirmir. Nizami Piriyev isə bildirib ki, "AzMeCo" şirkətinə məxsus metanol zavodu iyun ayının əvvəlindən fəaliyyətini bərpa edəcək.

**İqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, oliqarxların həbsi maliyyə nəzarətinin gücləndirilməsi baxımından müsbət haldır, məsələ yalnız kredit borcları olduğundan onu ödəyənlərin azad edilməsi də normaldır:** "Əgər banklara kredit borclarını qaytara bilməyən iş adamları həbs olunubsa, bu, iri həcmli digər kreditlərin qaytarılması ilə bağlı da məsuliyyəti artırır. Bu imkan verir ki, iş adamları vergi və kredit öhdəliklərinə daha ciddi yanaşsınlar. Məsələnin digər tərəfi ondan ibarətdir ki, həbs olunan iş adamlarının həyata keçirdiyi layihələr rentabelli layihələr deyildi. Bizim apardığımız monitorinqlər də göstərir ki, sözügedən iş adamlarının investisiya layihələri ilə bağlı xərc-gəlir analizi həyata keçirilməyib. Həmin oliqarxların həbs edilməsi layihələrin dayanmasına səbəb olsa belə, bu iqtisadiyyat üçün bir zərbə deyil. Çünki həmin layihələrin gəliri də sual doğurur. Aparılan son monitorinqlər göstərir ki, bu həbslər ölkədən investisiyanın xaricə getməsinə də gətirib çıxarmayacaq. Bu da onu göstərir ki, bu həbslər külli miqdarda pulun ölkədən çıxmasına gətirib çıxarmadı".

**Digər iqtisadçı ekspert Natiq Cəfərli son həbslərin məhkəməyə daşınmamasının səbəblərini açıqlayıb:** "Mən müsahibələrimdə demişdim ki, bu işlərin böyük əksəriyyəti məhkəmələrə qədər gedib çıxmayacaq. Çünki məhkəmələrə qədər gedib çıxması Azərbaycanda iqtisadi mühitin problemlərini, hansı korrupsiya sistemlərindən istifadə olunması üzə çıxa bilər və skandallar yarada bilər. Həbs olunanların azad olunması da göstərir ki, hakimiyyət nümayəndələrinin özləri də maraqlı deyillər ki, bu işlər məhkəməyə qədər gedib çıxsın. Çox güman ki, müəyyən kredit müqavilələri bağlandıqdan, öhdəliklər verildikdən sonra, onların böyük əksəriyyəti azadlığa çıxacaq".

**Natiq Cəfərli bu həbslərdən sonra investorların xaricə axın edəcəyini, oliqarxların vəsaitlərini ölkədən çıxaracağını vurğuladı:** "Bu həbslərdən sonra Azərbaycanda onsuz da yaxşı vəziyyətdə olmayan investisiya mühitinin daha da pisləşməsi mümkündür. Təkcə onlara deyil, digər insanlara da, bu işlərlə yaxından-uzaqdan əlaqəsi olmayan sahibkarlara da bir siqnal oldu ki, hər an hüquq-mühafizə orqanları tərəfindən onların biznesinə əl qoyula, fəaliyyətləri dayandırıla bilər, qeyri-qanuni elan oluna bilər. Ümumiyyətlə, bütün Azərbaycanda investisiya mühitinin daha da korlanmasına, xarici investisiyaların ölkədən çıxarılmasına gətirib çıxara bilər. Onsuz da Azərbaycanda energetika sektoru istisna olmaqla, digər sahələrə investisiya qoyanlar çox azlıq təşkil edirdi. İndi tamamilə bu investisiyaların kəsilməsi gündəmə gələ bilər. O da ola bilər ki, azərbaycanlı iş adamları ən yaxşı investisiya mühiti olan qonşu Türkiyəni və ya Gürcüstanı seçsinlər. Çünki Azərbaycan investisiyaları üçün başqa ölkələr çox məhduddur. Avropa ölkələrində iş qurmaq, yatırım etmək daha çətindir".

**Deputat Zahid Oruc isə bu həbsləri sadəcə maliyyə əməliyyatı adlandırdı və kredit borcunu ödəyənlərin azad olunmasını da normal qəbul etdiyini vurğuladı:** "Beynəlxalq Bankın resursları hansısa özəl qurumun vəsaitləri deyil. Səhmlərinin 51 faizi dövlətin sərəncamındadır. Bank eyni zamanda depozitləri də qəbul edir və onu kredit resursuna çevirir. Ancaq dediyimiz kimi əsas vəsait dövlətdən gəlir. Ona görə də bu həbslərdə məqsəd kimlərinsə iddia etdiyi kimi, biznesi, sahibkarları sıxmaq, təzyiq etmək, vəsaitləri xüsusi qaydada bölüşmək, iş adamlarını məcburi ödəmələrə cəlb etmək deyildi. Mənə elə gəlir ki, burada məsələ kifayət qədər sadədir: götürdüyünüz vəsaitləri geri qaytarın. Hamı kredit müddətinin 2018-2019-cu ildə bitməsindən danışır, layihələrə yönəlmiş vəsaitlərin doğru xərclədniyini iddia edir. Ancaq hər kəsə məlumdur ki, kredit götürən vətəndaşın aylıq ödəmə ilə bağlı öhdəliyi var. Bəs necə olur ki, iş adamlarının götürdüyü vəsaitlər birdən-birə 2019-cu ildə birdəfəlik ödənilməli olur".

**Zahid Oruc vurğuladı ki, burada hakimiyyətin başlıca məqsədi bu insanların ödəməli olduğu vəsaitlərin geri qaytarılması olub:** "Bu məsələnin çözümü iqtisadi mühiti şəffaflaşdıracaq, kredit sistemində dəqiqlik yaradacaq. Vətəndaşlar kredit faizlərinin yüksək olmasından şikayət edirlər. Belə olan təqdirdə varlı olmaq vətəndaşa üstünlük yaratmalıdırmı? İş adamları 100 milyon vəsait götürüb məcburi ödəmədən qıraqda qalmalıdır, ancaq 10 min kredit götürən insan ödəyə bilmədikdə evi əlindən alınmalıdır? Kreditlə bağlı bərabərhüquqluluq dövlətin siyasətinin əsasını təşkil etməlidir. Bu səbəbdən heç bir halda buna kriminal xarakter vermək lazım deyil".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015

**"Yeni Müsavat" qəzetinin ötən sayında məmur-oliqarxların müxalifətdən kömək istədiyi, yaranmış vəziyyətlə bağlı müxalifət düşərgəsinin bir sıra tanınmış fiqurlarının bir araya gəldiyi, hazırkı situasiyada necə hərəkət etmək istiqamətində ciddi müzakirələr apardığı barədə informasiya yayılıb. Qəzetin manşet yazısı olan məqalə, oradakı informasiyalar ciddi rezonans doğurub. Orada əksini tapan məqamlar, ortaya çıxan bir sıra suallara aydınlıq gətirmək üçün müxalifətin önəmli simalarından sayılan AXP sədri Pənah Hüseynlə söhbətləşdik.**

# Pənah Hüseyndən gündəmi silkələyəcək müsahibə

## AXP sədri məmur-oliqarxların müxalifətdən kömək istəməsinin sxemini açdı:
## "Onların demokratik düşərgəyə verdikləri vədin arxasında təminat olmasa..."

***- Pənah bəy, qəzetimizdə müxalif düşərgənin bir sıra təmsilçilərinin ölkədəki son həbslərdən sonra yaranmış vəziyyətlə bağlı toplantı keçirdikləri və müzakirə apardıqları barədə informasiya verilib. Siyasi müxalifətin əsas fiqurlarından biri olaraq bu barədə sizə nə məlumdur?***

- Xüsusi olaraq bu mövzuda toplantı keçirilməsi barədə bir şey deyə bilmərəm. Ancaq ayrı-ayrı siyasətçilərlə ölkədə baş verən hadisələrlə əlaqədar məsləhətləşmə və fikir mübadiləsi olur. Əlbəttə ki, bu məsləhətləşmələrin çevrəsi rəsmən əməkdaşlıq etdiyimiz partiya və şəxslərlə məhdudlaşmır. Aydındır ki, Bakıda çoxsaylı insan tələfatı ilə müşayiət olunan yanğın hadisəsi və bunun iri miqyaslı korrupsiyanı aşkara çıxarması, habelə və xüsusən Beynəlxalq Bankda dövlətin maliyyə təhlükəsizliyini və nəticə etibarı ilə milli təhlükəsizliyini, sosial-iqtisadi və siyasi stabilliyini təhdid edən dərəcədə, hələ sərhədləri tam aşkara çıxmamış müdhiş miqyaslı kredit fırıldaqları kimi hadisələrlə bağlı müxalifətdaxili təmaslar, məsləhətləşmələr də intensivləşir. Bu, müxtəlif dairələri hərəkətə gətirir və çevrəni genişləndirir.

***- Qəzetdə dərc olunan materialda ip ucları, hər halda, var. Burda konkret olaraq oliqarxların müxalifəti fəallaşmağa dəvət etməsi və kömək vədlərinin müzakirəsindən gedir.***

- Bilirsiniz, heç kəs gəlib bir neçə nəfərin yanında deməz ki, filan oliqarx xəbər göndərib ki, fəallaşın, mən də kömək edəcəm. Siz müxalifətdəkiləri də elə avam, sadələvh saymayın. Vədin təminatı olmasa, heç bunu sayıb söhbət mövzusu belə etməzlər. Təminat deyən kimi bəzilərinin ağlına ancaq maddi təminat gəlir ki, bu, belə deyil. Söhbət ondan gedir ki, elə addımlar atılmalıdır, geriyə yol qalmasın. Məsələn, belə bir halı mən icazə verin ad çəkmədən xatırladım. Hələ keçən əsrin sonunda müxalifət oliqarx kimi adı çəkilənlərdən biri ilə ancaq o vaxt ciddi münasibətlər qurmağa razılıq verdi ki, həmin şəxs geri çəkilməyi istisna edən açıq siyasi mövqelər ortaya qoydu. Odur ki, sizin sualınızdakı mövzuda hansısa söhbətdə kimsə nəyəsə işarə edə bilər, ancaq bu işarə edilənləri təsdiq edən real əlamətlər ortada olmasa, heç kəs tərəfindən ciddi qarşılanmaz.

***- Bu gün də iri vəzifələrdə çalışan oliqarxlar buna cəsarət edərmi?***

- Heç şübhəsiz etməzlər. Ona görə də onlarla siyasi müxalifətdə ağlı başında olanlar tərəfdaş münasibətləri qurmaz. Burda uzağı müvəqqəti və həm də bir-birinə zidd olan məqsədlərdən irəli gələn maraqlardan danışmaq olar. Bu cəhətdən sizin dərc etdiyiniz yazıdakı təhlillə razılaşmaq mümkündür. Yəni hazırda müşahidə etdiyimiz proses məntiqi şəkildə davam etsə, İlham Əliyev hakimiyyət elitasını bir növ yenidən formatlaşdırmalıdır. Kimlərisə vəzifədən qovmalıdır, kimlərisə həbs etməlidir, bəzilərinin həm də topladıqları var-dövlət və mülkiyyəti əlindən alınıb müsadirə edilməlidir və s. Bu potensial hədəfdə olanların əksəriyyəti əlbəttə ki, qorxudan indi iflic vəziyyətindədirlər və tərpənməyə cəsarət etmirlər. Lakin bəziləri də yollar axtarırlar ki, bu prosesin qarşısını alsınlar. Onlar sonda canlarını və mallarını qurtarmaq üçün xaosa, qarışıqlığa da gedərlər və bunun üçün hər cür təxribatı gözləmək olar. Ancaq bu, son, necə deyərlər, axırıncı üsullardır. Sınanmış metod, birinci şəxsin hakimiyyətinə təhlükə yaratmaq və ya belə bir görüntü yaradıb onu sona qədər getməkdən çəkindirməkdir. Bunun üçün isə ən cəlbedici yol siyasi müxalifətin fəallaşdırılmasıdır. Dəbdə olan terminləri istifadə etsək, optimal olan müxalifətin bir növ idarə olunan fəallığı situasiyası yaratmaqdır.

**"Bəzi məmurlar canlarını və mallarını qurtarmaq üçün xaosa, qarışıqlığa gedərlər və bunun üçün onlardan hər cür təxribatı gözləmək olar"**

***- Yəni deyirsiniz, oliqarxların belə beyin mərkəzləri var ki, bu cür taktikalar işləyib hazırlasınlar?***

- Güman eləmirəm ki, onların xüsusi bu cür mərkəzləri, qurumları, paralel təsisatları olsun. Başlıcası instinktdir. Ancaq ən azı bir neçəsi var ki, artıq özyetərli sistemə çevriliblər, klanlaşıblar. Burda, məsələn, qohumluq əlaqələrini kənara qoymaq olmaz. Son dövrdə hakim elita qapalı kasta kimi hətta yeni ailələri də öz içərisində qururdu və qohumluq əlaqələri ilə bir-birinə bağlanıb klanlar şəklində formalaşıblar. Deyilənə görə, hətta bunu siyasət kimi işləyib icrasına nəzarət ediblər. Ancaq indi bu əlavə bir təhlükə mənbəyinə çevrilib. İndi klanda birinə toxunanda, birinin üstünə gedəndə, digərləri da potensial qiyamçıya çevrilirlər. Odur ki, oliqarxiyaya qarşı çıxmaq və sona qədər getmək elə də sadə məsələ deyil. Bunun üçün alternativ dayaqlar, istinad, zəmin olmalıdır. Məsələn, kütləvi ictimai dəstək, ideoloji mütəşəkkil qüvvə - təşkilat, ordu, yetərli xarici güclərin dəstəyi və s. O cümlədən daxildə siyasi müxalifətin dəstəyini almadan və ya neytrallığına nail olmadan bu cür addımlara getmək istənilən hakimiyyət üçün çətindir və risklidir. Yəni elə bir situasiya yaranıb ki, nə avtakratiya, nə də bu sistemin üzvi törəməsi olan və bu gün hədəfə gəlmə təhlükəsi qarşısında qalmış oliqarxiya siyasi müxalifəti gözardı edə bilməz.

***- Belə olan halda prezident İlham Əliyev nə üçün onun özü üçün riskli addımlara getsin?***

- Çünki başqa cür də hakimiyyəti saxlamaq mümkün deyil. Bu cür addımlar ümumiyyətlə avtoritar rejimlərin mövcudluq üsuludur. Başqa cür hər hansı transformasiya mümkün görünmür və bu tipli rejimlərdə mümkün də deyil.

Beynəlxalq Bankda baş verənləri başqa cür necə izah etmək olar? Əvvəl mənimsənilən 6 milyard manatdan danışdılar, sonra 8 milyard, ən son 12 milyardlıq faktiki oğurluqdan bəhs edilir. Elə bu gün həbs olunanların birinin vəkilinin adından məlumat getdi ki, Beynəlxalq Bankın Dubay filialına 320 milyon manat pul keçiriblər, həmin filialın müdiri də pulları hansısa zavodlarla bağlı müxtəlif şirkətlərə verib və həmin zavodların kimlərə məxsus olmasını da bilmir. Yaxud yenə həmin filialın həbs edilən müdirinin adına saxta şirkət açıb 20 milyon veriblər, o, heç bu pulun üzünü də görməyib və hara, nə üçün verilməsini də bilmir və həbs edilsə belə bu pulları qaytara bilməyəcək. Bu, hələ bir bankda aşkara çıxanlardır. Deyilir ki, başqalarındakı, o cümlədən Dövlət İnvestisiya Fondunda vəziyyət bundan yaxşı deyil. Ümumiyyətlə, dövlətin neftdən, qazdan əldə etdiyi ehtiyatların əhəmiyyətli bir hissəsinin oğurlandığından, xəzinənin boş qalmasından söhbət gedir. Neft Fondunun ehtiyatlarının əhəmiyyətli hissəsinin ofşorlarda, riskli qiymətli kağız, birja oyunlarında it-bata düşməsi şayiələri baş alıb gedir. Aydınlıq gətirən də yoxdur. Mərkəzi Bank, Maliyyə Nazirliyi, Hesablama Palatası ağzına su alıb susur.



**"Oliqarxiyaya qarşı çıxmaq və sona qədər getmək elə də sadə məsələ deyil"**

Bütün çatışmazlıqlara baxmayaraq, kifayət qədər yetərli qanunvericilik bazası və qanunların yerinə yetirilməsini təmin etməli olan dövlət strukturları vardır ki, onların öz funksiyalarını yerinə yetirdiyi halda, işlədiyi halda bu hadisələrin baş verməsi mümkün deyil. Diqqətinizi bir şeyə cəlb edim. Məncə, son dövrdə səhv etmirəmsə, mayın 27-dəki tədbirdəki nitqində İlham Əliyevin dilindən səslənən "prezident həmişə, hər şeyi nəzarətdə saxlaya bilməz" bəyanatı vəziyyətin dramatikliyindən xəbər verir və həm də göstərir ki, İlham Əliyev yaranan sualların birinci növbədə təbii olaraq ona ünvanlandığının fərqindədir.

***- Bir sıra ekspertlər, o cümlədən müxalifət bu dəfə də proseslərin yarımçıq qalacağı və xırda fiqurların cəzalandırılması ilə sonuclanacağı, oğurluqların ört-basdır ediləcəyini proqnozlaşdırırlar. Siz necə düşünürsünüz?***

- Əvvəlki dövrlərdə baş verənləri xatırlasaq başqa cür düşünmək də çətindir. Yəni belə təcrübələr var. Ancaq nə bilmək olar. İndi də xalq, cəmiyyət passiv, seyrçi mövqedə qalacaqsa yenə belə olacağını düşünmək məntiqi görünür. Ancaq hər şey məntiqlə cərəyan etmir ki...

***- "Yeni Müsavat"da gedən məlumatda hazırkı situasiyada müxalifətin strategiyası barədə iki fərqli mövqeyin meydana çıxdığı deyilir. Birincilər baş verən hadisələri, fors-major xarakterli, o cümlədən prezident-oliqarx qarşıdurması, yuxarıların əvvəlki qayda ilə idarə edə bilməməsi əlaməti kimi dəyərləndirib oliqarxların hansı məqsəd güdmələrindən asılı olmayaraq onlardan da istifadə etməklə inqilabi fəallıq göstərməyə, digərləri isə hadisələrin təbii axarına mane olmayaraq sakit oturub gözləməyə, hətta bəziləri dolayı yolla İlham Əliyevə dəstək göstərilməsi xəttinə üstünlük verirlər. Siz hansı mövqedəsiniz?***

- Məncə, burda məsələ həddən artıq sxematikləşdirilib. Baş verən hadisələrə, bu fəlakətə, bu miqyaslı korrupsiyaya cəmiyyət, müxalifət necə susub laqeyd qala bilər? Yəni mən qəti əleyhinəyəm və qəbul etmirəm ki, indiki vəziyyətdə bu hadisələrlə bağlı müxalifətin fəallaşması halları dərhal və tamamən oliqarxların sifarişi elan edilsin. Demokratik müxalifət heç vaxt kiminsə əlaltısı rolunu oynamayıb və əminəm ki, bundan sonra da belə məsələ ola da bilməz. Eyni zamanda hesab etmirəm ki, müxalifətin fəallaşmasının labüd nəticəsi İlham Əliyevin başlatdığı prosesi durdurmasına və oliqarx-məmurlara bu dəfə dəstək almaq üçün üz tutması ola bilər. Hərçənd ki, bu ehtimalı kənara da qoymaq olmaz. Lakin başqa, az inandırıcı olmayan yanaşmalar, mövqelər də var. İstəyirsiniz bunu üçüncü mövqe adlandırın. Məncə, məhz cəmiyyətin bu hadisələrlə əlaqədar seyrçi qalmaması, o cümlədən məmur oliqarxiyasına qarşı fəal mübarizə mövqeyi tutması İlham Əliyevin daha ciddi dəyişikliklərə getməsini şərtləndirə bilər. Məsələn, yaranmış situasiyada ən optimal addımlardan biri olaraq Artur Rasizadə kabinetinin istefaya göndərilib yeni kabinetin məmur-oliqarx kimi tanınan və hadisələrə görə məsuliyyət daşıyan şəxslər olmadan formalaşdırılması ola bilər. Habelə, ciddi dəyişikliklər üçün demokratik müxalifətlə əməkdaşlıq şəraitində yeni parlament seçkilərinin tezləşdirilməsi və keyfiyyətcə fərqli, ictimai dəstəkli parlamentin formalaşdırılması vacibdir ki, dəyişikliklərin mexanizmlərindən biri də əldə edilsin. Bu addımlar həm də məmur-oliqarxların və onların Milli Məclisdəki uzantılarının əli ilə dövlət əleyhinə mümkün təxribatları da neytrallaşdırardı. Bu təkliflər "Azadlıq -2015" seçki blokunun son iclasının qərarlarında irəli sürülüb. Deyilənlər müxalifətin birliyi məsələsinə də aiddir. Əslində yaranmış vəziyyət müxalifətdən qeyri-standart addımlar atmağı tələb edir. "Bizdən başqa müxalifət yoxdur, biz bir yerdəyik və deməli, müxalifət birləşib" kimi xəyali və zərərli təsəvvürləri bir kənara qoymaq lazımdır. Cəmiyyətin bu gün bir yerdə oturmasını belə təsəvvür etmədiyi şəxslərin həqiqətən, məxfi yox, açıq şəkildə bir yerdə oturub vəziyyəti müzakirə etmələrinə, demokratik düşərgənin şəffaf şəkildə bir araya gəlməsinə ehtiyac var. Mən siyasi müxalifətin demokratik prinsiplər və dəyərlər platformasında qalmaqla, Azərbaycanın demokratikləşməsi strategiyasından vaz keçməməklə hər cür taktiki manevrlərdən çəkinməməsi qənaətindəyəm.

**"Müşahidə etdiyimiz proses məntiqi şəkildə davam etsə, İlham Əliyev kimlərisə həbs etməlidir, bəzilərinin həm də topladıqları var-dövlət və mülkiyyəti əlindən alınıb müsadirə edilməlidir"**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015

## Sabiq nazir haqda yeni sensasion məlumatlar: “siyasətə qoşulub...”



# Fərhad Əliyev Almaniyadan sığınacaq aldı

### Keçmiş iqtisadi inkişaf naziri və qardaşı Almaniyadan sığınacaq alsalar da, başqa ölkədə yaşamağa üstünlük verirlər; həbsdən çıxdıqdan sonra siyasətə qoşulmayacağına vəd verən milyarder yenə Cəmil Həsənlinin yanında - bu dəfə də gizli...

**2013-cü ilin oktyabr ayında əfv edilən sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev və qardaşı Rafiq Əliyev Almaniyadan sığınacaq alıb. Bu sensasion məlumatı redaksiyamıza verən mənbənin sözlərinə görə, Əliyev qardaşları ən azı 5 il Azərbaycana qayıda bilməyəcəklər.**

F.Əliyev 2001-ci ildə iqtisadi inkişaf naziri təyin olunmuşdu. 2005-ci il oktyabrın 19-da parlament seçkiləri ərəfəsində onu öz xidməti kabinetində həbs etmişdilər. Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin 2007-ci il 25 oktyabr tarixli hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilmişdi. Rafiq Əliyev də 2005-ci ildə həbs olunmuşdu və məhkəmə onu 9 il azadlıqdan məhrum etmişdi.

Azadlığa buraxıldıqdan sonra Əliyev qardaşlarının həbsdən əvvəl sahib olduqları bəzi biznes obyektlərinin onlara geri qaytarılması ilə bağlı xəbərlər yayılsa da, əks proses baş verdi. Belə ki, qardaşlar Bakıdakı biznes obyektlərində olan paylarını da satdılar. Məsələn, R.Əliyev “Bank of Baku” ASC-də ona məxsus iki səhm paketini satdı.

F.Əliyevin həbsdən buraxıldıqdan sonra ölkəni tərk edəcəyi barədə xəbərlər yeni deyildi. Çünki hakimiyyətlə belə bir anlaşma da olmuşdu ki, sabiq nazir və qardaşı əfv edildikdən sonra xaricdə yaşayacaqlar. Üstəlik, belə bir anlaşma da vardı ki, milyarder statusunu həbsdə də itirməyən, xaricdə də xeyli əmlak sahibi olan Əliyevlər heç bir siyasi fəallıq göstərməyəcəklər, susacaqlar.

Redaksiyamıza məlumat verən mənbənin dediyinə görə, sığınacağı Almaniyadan almalarına baxmayaraq, hazırda Əliyev qardaşları bu ölkədə yaşamırlar. Bəzi mənbələr iddia edir ki, Fərhad və Rafiq Əliyevlər İngiltərədə yaşayırlar. Bəzi mənbələr isə onların hazırda İsveçrədə məskunlaşdıqlarını iddia edirlər. Sabiq nazirin yaxın adamları da bir neçə ay əvvəl mətbuatda verdiyi açıqlamada F.Əliyevin Almaniyada müalicə olunduğunu təsdiqləmişdilər.

Mənbənin iddiasına görə, Fərhad Əliyev Almaniyada deyil, İngiltərəyə köçərək orada ailəsi ilə birlikdə yaşayır. Qeyd edək ki, sabiq nazirin oğlu Böyük Britaniyada təhsil alır. Fərhad Əliyevin həyat yoldaşı da uzun illərdir ki, Londonda oğlunun yanında yaşayır. Bu ölkənin qanunlarına görə, evi olan şəxsin İngiltərədə yaşaması üçün sığınacaq, xüsusən də siyasi sığınacaq alması zərurət görülmür.

Ümumiyyətlə, dünyanın dörd bir tərəfindən olan zəngin siyasi mühacirlər adətən hansısa Avropa ölkəsindən sığınacaq alır, lakin daimi yaşama yeri kimi başqa ölkəni seçə bilirlər. Məsələn, Rusiya prezidentinin uzun illər həbsdə saxladığı məşhur YUKOS şirkətinin prezidenti Mixail Xodorkovski əfv edildikdən sonra Almaniyadan siyasi sığınacaq almasına baxmayaraq, İsveçrənin Sürix şəhərində, özünə məxsus olan villada yaşayır.

Əllərində böyük vəsait olan Fərhad və Rafiq Əliyevlərin də Avropanın ən müxtəlif şəhərlərində biznes qurumları, çoxsaylı tərpənməz əmlakları var. Onlar üçün ev, iş qurmaq problem deyil. Problem budur ki, Azərbaycan iqtidarı ilə gizli anlaşmalarına baxmayaraq, Əliyevlər yenə də “siyasətə” qoşulublar.

Qaynağımız iddia edib ki, onlar üzdə sakit və fəaliyyətsiz görünsələr də, Milli Şuranın sədri, uzun illər Fərhad Əliyevin Hüquqlarını Müdafiə Komitəsinin sədri olmuş Cəmil Həsənli ilə bu və başqa formada əlaqələrini davam etdirirlər. Mənbə deyib ki, Fərhad Əliyev 2013-cü ildə, həbsdən çıxan ərəfədə Cəmil Həsənliyə qarşı “saygısızlığı”nı” bir növ kompensasiya da edib. Xatırladaq ki, 2013-cü ilin avqustunda Fərhad Əliyev oktyabr seçkilərində prezident İlham Əliyevi dəstəkləyəcəyi ilə bağlı bəyanat vermişdi. Sabiq nazir avqustun 24-də yaydığı müraciətdə Cəmil Həsənli haqda “həmyerlim, uzaq qohumum və eyni zamanda hüquqlarımı müdafiə komitəsinin sədri” ifadələrini işlətsə də, “prezident seçkisində yaxından tanıdığım, uzun illər birgə çalışdığım, səriştəsinə, bilik və bacarığına yaxından bələd olduğum, Azərbaycanın iqtisadi dirçəlişini təmin edən, dünyaya tanıdan, uzaqgörən siyasəti ilə beynəlxalq nüfuza malik olan cənab İlham Əliyevə səs verəcəyəm” bəyanatı vermişdi. Üstəlik, sabiq nazir inandığını bildirmişdi ki, “yaxınları da onunla eyni mövqedədir”.

Mənbəmiz iddia edir ki, C.Həsənli ilə F.Əliyevin münasibətləri hələ nazir olarkən yaranıb."Fərhad Əliyev ola bilsin ki, hakimiyyətin razılığı ilə AXCP-nin Əli Kərimli qanadını Əbülfəz Elçibəyə qarşı maliyyələşdirirdi. Bu işdə əlaqələndirici rolunda isə Cəmil Həsənli dayanırdı" deyə, mənbəmiz qeyd edib.

Xəbərlərə görə, Milli Şura sədri ilə indiki əlaqələrin deşifrə olunması Azərbaycan hakimiyyətini qəzəbləndirə bilər. Çünki indi iqtidar üçün həssas dönəmdir və bir neçə ay sonra ölkədə parlament seçkiləri keçiriləcək. Doğrudur, hakimiyyətin artıq Əliyevləri cəzalandırmaq mexanizmi demək olar ki, yoxdur. Amma bu heç də o demək deyil ki, hakimiyyət əks addımlar atmayacaq.

**Yazıda adları çəkilən hər kəsin fikirlərini dərc etməyə hazırıq.**

❑ **Xəbər xidməti**

# “O binanı dədə-baba variantı ilə təmir edəcəyik”

### Binəqədidə yanan binada iş görən şirkətin deputat rəhbəri Ağalar Vəliyev: “Mənzillərdə mətbəx mebellərinə kimi olacaq - bütün xərcləri dövlət qarşılayır”



**“Belə fövqəladə məsələlərdə tender elan olunmur. Bunu kim deyirsə, yanlış deyir. Tender proseduru 3 aydır. 3 ay sakinlər təmirin nə vaxt keçiriləcəyini gözləməlidirlər?”**

**Binəqədi rayonunda yanan binanın təmiri “Azəraqrartikinti” ASC-yə həvalə olunub. ASC-nin rəhbəri, Milli Məclisin deputatı Ağalar Vəliyev “Yeni Müsavat”a demişdi ki, Fövqəladə Hallar Nazirliyinin Dövlət Layihə İnstitutu tərəfindən binanın layihə-smeta sənədləri hazırlanır, bina Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri tərəfindən müayinə olunur.**

Deputat binada üzlənmə işlərinin görülməsi üçün 3 material üzərində işləndiyini də açıqlamışdı. Demişdi ki, üzlənmədə keremoqranitdən istifadə nəzərdən keçirilir. 2-ci variant kimi pəncərələrin kənarları aqlay daşı ilə üzlənib ətrafına suvaq vurula və yüksək keyfiyyətli boya ilə üzlənə bilər. 3-cü variant kimi isə sintofleks adlı materialla binanın üzlənməsi mümkündür.

**Binadakı son durumu öyrənmək üçün musavat.com-un əməkdaşı yenidən A.Vəliyevlə əlaqə saxlayıb. A.Vəliyev deyib ki, binanın 3 tərəfinin alt konstruksiyası artıq sökülüb:** “Ön tərəfinin sökülməsinə başlanacaq. Gecikmənin səbəbi sakinlərin əşyalarını hələ tam olaraq evlərindən çıxarmaması ilə əlaqədardır. Növbəli şəkildə onlar əşyalarını çıxarır, sonra isə biz söküntü işlərini aparırıq. 2 günün içində fasadın tam söküntüsünü sona çatdırarıq”.

**A.Vəliyev bildirib ki, üzlük material seçiminin nəticəsi bu gün bilinəcək:** “Bu gün layihəçilər bütün variantları Dövlət Komissiyasına təhvil veriblər. Yəqin ki, sabah qərar bilinər. Biz divarın konstruksiyasını da sökmüşük, suvaq qatını da sökməyə başlamışıq”.

ASC təsisçisi olan deputat onu da deyib ki, binada tam əsaslı təmir həyata keçiriləcək. Fəxri mühəndis olan A.Vəliyevdən binanın üzlənməsi ilə bağlı təklif edilən 3 variantdan hansına üstünlük verdiklərini də xəbər aldıq.

“Dədə-baba variantı - keyfiyyətli suvaq və keyfiyyətli boya vurulması, məncə, daha yaxşı olar. Hazırda bir neçə dövlət keyfiyyətli boya istehsal edir. Hansı ki, həmin boyaların 20 il istismar müddəti var. Keromoqranit də ola bilər”- deyə A.Vəliyev bildirib.

**Yanan binanın paneldən tikildiyini diqqətə çatdıran deputat qeyd edib ki, üzlənmə işləri mütləq qaydada həyata keçirilməlidir:** “Sovet dövründə tikilmiş binadır. Amma tam dayanıqlıdır. Fasadı istər suvaqla, istərsə də keremoqranitlə üzləndikdən sonra içəridə də yüksək keyfiyyətli təmir aparacağıq”.

**“Binanın daxilində, mənzillərdə təmir aparılacaqmı” sualına A.Vəliyev belə cavab verib:** “Binadakı mənzillərin tavanı, döşəməsi, divarları, sanitar qovşaqları, pilləkən meydançasından tutmuş balkonlara qədər tam təmir olunacaq. Hətta mənzillərin mətbəx mebeli ilə təmini də tapşırılıb və layihədə öz əksini tapacaq”.

**A.Vəliyev təmirin dövlət hesabına həyata keçiriləcəyini də açıqlayıb. Binanın təmiri ilə bağlı tender elan olunmamasının səbəbini isə belə izah edib:** “Belə fövqəladə məsələlərdə tender elan olunmur. Bunu kim deyirsə, yanlış deyir. Tender proseduru 3 aydır. 3 ay sakinlər təmirin nə vaxt keçiriləcəyini gözləməlidirlər?”

**“Bəs binanın tendersiz, dövlət hesabına təmiri hansı qanuna əsasən həyata keçirilir” - sualına deputatın cavabı belə olub:** “Qanun imkan verir ki, fövqəladə hallarda dövlət baş nazirin sərəncamı ilə tikinti şirkətinə bu və ya digər işin icrasını həvalə edə bilər. "Satınalmalar haqqında" Qanunda var ki, baş nazirin sərəncamı ilə seçdikləri təşkilata müəyyən işlərin görülməsi həvalə edilsin".

**“Azəraqrartikinti” ASC gəlir gətirən təşkilatdır və təşkilatın rəhbəri A.Vəliyev deputatdır. Qanunla deputatın gəlir gətirən biznes strukturunun rəhbəri olması yasaqdır. Bu fikir A.Vəliyevin keçmiş həmkarları tərəfindən də açıqlanıb. YAP-çı eks-deputat Nazim Məmmədov “Yeni Müsavat”a müsahibəsində qanunverici orqanda 40-a yaxın deputat-biznesmenin oturduğunu açıqlayıb və onların fəaliyyətini qanunsuz olduğunu deyib. A.Vəliyev bu fikirləri qəbul etmir:** “Mən ASC-nin təsisçisiyəm. Buranın icraçı direktoru var. Nə deyirlər, desinlər. Fəaliyyətimiz qanuna tam müvafiqdir”.

Məlumat üçün deyək ki, Ağalar Vəliyev YAP-çı deputatlardandır. Parlamentin İqtisadi siyasət komitəsinin üzvüdür. 1957-ci il təvəllüdlü A.Vəliyev 1996-cı il iyunun 19-da mərhum prezident Heydər Əliyev tərəfindən “Azəraqrartikinti” Dövlət Şirkətinin prezidenti vəzifəsinə irəli çəkilib. 1998-ci ildən isə Ağalar Vəliyev həmin şirkətin bazasında yaradılmış respublika əhəmiyyətli “Azəraqrartikinti” Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində çalışır. 2006-cı ildən dövlət investisiyalarının həcmi artdıqca, onun bölüşdürülməsində hökumət ona etibar etməyə başlayıb. Prezident İlham Əliyevin göstərişi ilə “Azəraqrartikinti” ASC-yə Bakı şəhərində bir sıra mühüm tarixi əhəmiyyət kəsb edən binaların tikintisi, bərpası və yenidən qurulması həvalə edilib. A.Vəliyev prezident İlham Əliyevin 9 aprel 2010-cu il tarixli sərəncamı ilə “Əməkdar mühəndis” fəxri adına layiq görülüb. Qeyd edək ki, mayın 19-da Bakının Binəqədi rayonunda baş verən yanğın nəticəsində 15 nəfər ölüb, 50-dən çox insan isə yaralanıb. Hadisə nəticəsində bina yararsız vəziyyətə düşüb. Ölkə başçısının sərəncamı ilə binanın təmiri üçün 3 milyon manat vəsait ayrılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Sandığı necə qorumalı?

Samir SARI

**Baş nazir olmaq istəyən adamdır, deyir, arkadaşlar, hiylə yapacaqlar, səs oğurlayacaqlar, görsəniz ki, belə bir iş edirlər, oturun seçki qutusunun üstündə. Əslində bu sözü deyən adam "seçki qutusu" yerinə "sandıq" deyib, nədən ki, söhbət Türkiyədə olub və bildiyiniz kimi, orada seçki qutusuna sandıq deyirlər. (Bəlkə də düzü budur, amma bizdə sandıq nənələrin ləvazimatının yığıldığı iri qutuya deyirlər, ağzı da daima qıfıllı olar, o qıfıl surğucdan da etibarlıdır).**

Bir başqa lider isə deyir ki, 10 mərtəbəli binada yaşayan seçicilərin sayını artırmaq üçün binanı 11 mərtəbədən hesablayırlar.

Rəhmətə getmiş adamların adlarının seçici siyahısında saxlanıldığını isə başqa bir lider deyir.

Əyalətlərdə tərk edilmiş, insan yaşamayan evlərin qeydə alındığı, səsvermə günü həmin evlərə səyyar seçki qutusu aparılmasına hazırlıq görüldüyü barədə də xəbərlər, iddialar var.

Bir sözlə, belə anlaşılır ki, iyunun 7-də Türkiyədə keçiriləcək seçkilərdə yenə axşam saatlarında transformatora pişik girəcək və işıqlar sönəcək. *(Qeyd edək ki, ötənilki bələdiyyə seçkilərində səsvermə gecəsi işıqların kütləvi şəkildə sönməsinin adını belə qoymuşdular: "Trafoya kedi girmiş").*

İndiyəcən belə söhbət yox idi. Hətta keçənilki seçkilərdə də liderlər səs oğurluğundan, hiylədən-filandan danışmırdılar, eləcə, bağıra-çağıra xalqdan oy (səs) istəyirdilər, deyirdilər, bu böyük ölkəni yalnız bizim partiya xilas edəcək, o birilər boş şeydir.

Bu il isə artıq sandığı qorumaqdan söhbət gedir.

Mənzərə tanış gəlir. Sanki biz bu cür sözləri əvvəllər çox eşitmişik.

Əlbəttə, eşitmişik. Zatən, uzun illərdir, bizdə xalqdan səs istəyən liderə belə cavab verirlər: "Bəy, biz ailəlikcə, nəsillikcə sizə səs verəcəyik, amma bir deyin görək, xeyri olacaq?"

Bir ara liderlər deyirdilər, siz səs verin, gerisi ilə işiniz yoxdur. Amma sonralar məlum oldu ki, yox, məsələ səs verməklə, səs qazanmaqla bitmir, gərək bunu protokola da yazdıra biləsən.

Eh, heç bilirsiniz, seçki gecələrində nə qədər protokollar cırılıb yenidən yazılır? Saxtalaşdırılmış protokolu imzalamaq istəməyən nə qədər komissiya üzvünün qolunu qandallayıb polis şöbəsinə basırlar?

Ona görə də liderlər söhbəti bir az dəyişdilər, bu dəfə belə dedilər: "Bizə səs verin və verdiyiniz səsə sahib çıxın, oğurlamasınlar".

Seçicilərin bir qismi bu çağırışa qoşuldu, səsvermə gecəsi seçki məntəqəsinin qarşısına gəlib dara-bara salanlar oldu, amma əksəriyyət işini bitmiş sayıb evində oturdu. Gerçəkdən də, bizim seçici gündüz səs verib, axşam isə məntəqəyə gedib hökumətlə hökumətlik etməyə hazır deyil.

Açığı, bir az da qorxulu işdir. Çünki hökumət adamları məntəqə önünə gəlib səs davası edənləri sevmir, girələyib dolaşdırır. Adam səsinin davasını elədiyi deyildi, işini də itirir, cibində olan beş manat pulu da.

İndiyədək bizdə də, türkün sözü, kedilərin trafoya girməsi halları çox olub. İşıqlar sönürdü, qaranlıqda çığırışma, süpürləşmə düşürdü, işıq yananda görürdülər, bay, gündüz vaxtı boş olan şəffaf sandıq artıq dopdoludur.

Bir dəfə hətta Gəncədə məntəqə seçki komissiyasının sədri görmüşdü ki, macal-mafar tapıb seçki qutusunu doldura bilmir, o boyda sandığı qoltuğuna vurub naməlum istiqamətə qaçmış, gizli bir yerdə ağır və şərəfli vəzifəsini yerinə yetirdikdən sonra qayıtmışdı.

Son illər isə qutu doldurmağa-filana o qədər də fikir verən yoxdur. Deyirlər, qoy səsverməyə kim gəlir, gəlsin, kimə istəyir, səs versin, fərqi yoxdur. Axşam masa başında otururlar, qutudakı bülletenləri sayıb, protokol tərtib edir, dağılışırlar. Sonra MnSK sədri və katibi DSK-ya gedir, orda protokolu yenidən yazıb möhürləyirlər, məsələ bitir. Şəffaf seçki qutusu söhbəti köhnəlib artıq.

Türkiyəli qardaşlarımız isə hələ indi-indi sandığı qorumaqdan, seçki hiyləsinin qarşısını almaqdan danışır. Bizdə ilk pişiklər transformatora 1995-də girmiş və işıqları kütləvi şəkildə söndürmüşdülərsə, Türkiyədəki siyasiləşmiş pişiklər bunu 19 ildən sonra, keçən il etdilər.

Bizdə sandığı qorumaq mümkün olmadı, görək iyunun 7-də türkiyəli seçmənlər sandıqlarını qoruya biləcəklərmi?

# "İşimin başındayam - qaldığım yerdən davam edirəm"

## Hacı İbrahim Nehrəmli: "İçəridə yeyib-içib yatırdım, mənə qarşı heç bir kobudluq olmayıb"



Hacı İbrahim Nehrəmli

**Bu günlərdə DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin təcridxanasından azadlığa buraxılan Hacı İbrahim Nehrəmli musavat.com-a danışıb.**

***- İbrahim bəy, həbsdən sonra vəziyyət necədir?***

- Yaxşıdır. Çıxmışam, işimin başındayam. Başladığım işlər də davam etdirilir. Milyon yarım gecikdirilmiş kredit borcum varıydı, onu ödədim və çıxdım. Qalan hər şey şayiədir.

***- "Xəzər Adaları"nda işlər davam etdiriləcəkmi?***

- Hə, şəhərdə işlər davam etdiriləcək.

***- Maddi itkiləriniz oldu, krediti əvvəlcədən ödədiniz. Bu, işlərinizə təsir edəcəkmi?***

- Borcum milyon yarım idi, onu da ödəmişəm. İşlərimi davam etdirməyə resurslar var. Əvvəl necə edirdimsə, indi də elə edirəm.

***- Bildirilirdi ki, "Avesta" konserninin ofisini satışa çıxarmısınız. Səbəb nədir?***

- Yalan söhbətdir. Hamısı yalandır.

***- İşçilərin qeyri-müəyyən müddətə məzuniyyətə buraxıldığı da bildirilirdi. İndi vəziyyət nə yerdədir?***

- Avropa Oyunlarından sonra hamısı qayıdacaq işinə. Oyunlar vaxtı mümkün deyil şəhərdə işləmək. Oyunlardan sonra hamı qayıdıb gələcək iş başına.

***- Sizinlə bağlı istintaq davam edirmi?***

- Mənimlə bağlı istintaq olmadı.

***- Bildirilir ki, xeyli obyektinizi satışa çıxarmısınız. Xəbər nə dərəcədə düzdür?***

- Mən o obyektləri zatən satıram. Satışdadır hamısı. Əvvəldən də satırdım. Ucuzuna satmıram, elə əvvəlki qiymətədir. Bilirsiz, şayiələr çox yayılır. Mən satırdım o evləri min manata. Deyirdilər, yox, bu, iki minədir, niyə minə satırsan? Mən belə satıram da.

***- İçəridə sizə qarşı kobudluq olubmu?***

- Mənə qarşı heç bir kobudluq-filan olmadı.

***- İçəridə həbs olunan kimlərlə görüşə bilirdiz?***

- Heç kimi görmədim. Təsadüfən görürdüm, geyinib gəzirdilər orada.

***- Ayrı-ayrı otaqlarda qalırdınız?***

- Hamı bir yerdə olmur ki. Narahatçılığa səbəb olacaq heç nə görmədim. Yemək-içmək... Yeyib yatırdılar, arada gəzirdilər dəhlizdə... Yeni telefon əlimizdə, işimizi aparırdıq ki, borcumuzu çatdıra bilək.

***- Həbs olunanlardan biri - Nizami Piriyevin vəkili mətbuata açıqlama verdi ki, müvəkkilinə içəridə işgəncələr verilir.***

- Bu haqda heç bir məlumatım yoxdu.

Xatırladaq ki, Hacı İbrahim Nehrəmli Beynəlxalq Banka kredit borcuna görə may ayının 12-də DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdı. Onu sözügedən bankdan 78 milyon manat kredit götürüb qaytarmamaqda ittiham edirdilər. Lakin Hacı İbrahim bildirir ki, kreditin qaytarılma tarixi 2019-cu ildə başa çatır. İş adamı mayın 27-də sərbəst buraxılıb.

❑ Röya RƏFİYEVA

# "Bu ittihamların heç bir əsası yoxdur"

## Abdulla Abdullayev: "Mənə nə cəza verəcəksiniz verin, qurtarıb getsin bu iş"

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə A.M.A.Y. ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**



Abdulla Abdullayev

Mayın 29-da baş tutan prosesdə şahid qismində Elşən Hüseynov ifadə verdi. O bildirdi ki, A.M.A.Y.-da anbardar işləyib. Onun adına "Vüsalə-96" firması yaradılıb, təqsirləndirilən Elşən Novruzovun təklifi ilə "Texnikabank"dan 1 milyon manat kredit götürülüb. Həmin vəsait A.M.A.Y.-ın tikintisinə sərf olunub.

Daha sonra Abdulla Abdullayevin vəkili Əkbər Bağırov Sahibkarlığa Milli Kömək Fondunun icraçı direktoru Elçin Zeynalovun, "Birlikbank"ın İdarə Heyətinin sədri olmuş Səriyyə Səmədovanın məhkəmədə şahid qismində dindirilməsi haqda vəsatət qaldırdı.

Vəkil bildirdi ki, "Birlikbank" işi üzrə cəzalandırılan Səriyyə Səmədovanın barəsindəki hökm qanunsuz olub. Nəticədə S.Səmədova ağır şəkər xəstəliyinə tutulub: "Ona "Birlikbank"la bağlı verilən ittihamlar əsassız olub".

**Hakim bildirdi ki, Səriyyə Səmədova ilə bağlı məsələnin bu işə heç bir aidiyyəti yoxdur:** "Hökm qanuni qüvvəsindədir, ləğv olunmayıb. Onu müzakirə etmək səlahiyyətimiz yoxdur".

**Abdulla Abdullayev vəkilinin vəsatəti ilə razılaşmadı:** "Elçin Zeynalovun çağırılmasına ehtiyac duymuram. O, dövlət məmurudur, sifarişi yerinə yetirir. Ona tapşırıblar ki, bu işi gör, o da görüb. İndi bizə yaraşmaz ki, burada onunla üz-üzə duraq. Səriyyə Səmədovanın gəlməsinə də ehtiyac görmürəm. Bu ittihamların heç bir əsası yoxdur. Mənə nə cəza verəcəksiniz verin, qurtarıb getsin bu iş. Bu adamların heç bir günahı yoxdur. Onlar illərlə mənim yanımda işləyiblər, ümidlə yaşayıblar ki, bir gün hər şey yaxşı olacaq. Amma bu gün gəlib burada oturublar".

Prosesi iyunun 2-də davam etdiriləcək.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədir.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015







# "Azərbaycan həqiqətləri İsveç cəmiyyətinə çatdırılır"

## Rüfət Muradlı: "Haqqımızın tanınmasını istəyiriksə, həqiqətlərimizi catdırmaq yönündə daha çox çalışmalıyıq"

**Ümid Partiyasının ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı İsveçdə səfərdədir. O, İsveç-Azərbaycan Qarabağ Cəmiyyətinin təşkilatçılığı ilə İsveçdə keçirilən 28 May həftəsində iştirak edir.**

Mayın 26-dan başlayaraq həftə ərzində Azərbaycanla bağlı müxtəlif tədbirlər və görüşlər keçirilir. Məqsəd isə Azərbaycan həqiqətlərini İsveç cəmiyyətinə, özəlliklə siyasi çevrələrə çatdırmaqdır.

Ümid Partiyasının ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı ilə birlikdə tədqiqatçı-alim Yasəmən Qaraqoyunlu da tədbirdə iştirak etmək üçün İsveçdədir.

Mayın 26-da bir neçə əhəmiyyətli görüşlər keçirilib. Görüşlər İsveç-Azərbaycan Qarabağ Cəmiyyətinin təmsilçiləri Cavanşir Əmir Haşimi, Rıza Qaraçay , Ayda Əmir Haşimi, Rüfət Muradlı və Yasəmən Qaraqoyunlunun iştirakı ilə keçirilib.

"Mayın 26-da İsveç-Azərbaycan Qarabağ Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən 28 May həftəsi tədbirləri çərçivəsində İsveç Xarici İşlər Nazirliyində, eləcə də parlamentdə çox önəmli görüşlərimiz oldu. Hər iki görüşdə ərazilərimizin işğalı, qaçqınlarımızın problemi, Xocalı və Güney Azərbaycandakı soyqırımı haqda tərəf müqabillərimizi məlumatlandırdıq və Azərbaycan həqiqətlərinin İsveç toplumuna çatdırılması yönündə önəmli vədlər aldıq. Keçirilən ilk görüşlərdən aldığımız sonuc isə budur- haqqımızın tanınmasını istəyiriksə həqiqətlərimizi catdırmaq yönündə daha çox çalışmalıyıq. Yaxın günlərdə mediada görüşlərin təfərrüatı öz əksini tapacaq."-deyə R. Muradlı conflic.az-a bildirib.





Mayın 27-də İsveçin paytaxtı Stokholm şəhərində "28 May dəyərləri" adlı seminar keçirilib. Seminarın əvvəlində cəmiyyətin təmsilçisi və seminarın aparıcısı Ayda Əmir Haşimi tədbirin keçirilməsi haqda qısa məlumat verdikdən və qonaqları salamladıqdan sonra Azərbaycan Respublikasının himni səslənib. Sonra giriş nitqi ilə İsveç-Azərbaycan Qarabağ Cəmiyyətinin sədri Abdulla Əmir Haşimi çıxış edərək, iştirakçılara və məruzəçilərə təşəkkürünü bildirib, 28 May Azərbaycan Cümhuriyyətinin yarandığı günün əhəmiyyəti haqda iştirakçılarla fikirlərini bölüşüb. Nəhayət, məruzələr başlanıb. İlk məruzə ilə isə AMEA əməkdaşı, tədqiqatçı alim Yasəmən Qaraqoyunlu çıxış edib. O, 28 May və Rəsulzadə şəxsiyyətinin tariximiz üçün önəminə işarə edərək bu mövzunun eyni kontekstdə öyrənilməsi zərurətinə təkid edib. Milli təsanüd nəzəriyyəsinin İsveç siyasi sisteminə uyğunluğuna bəhs edən Yasəmən Qaraqoyunlu, bu günümüzdə də Azərbaycan üçün bu siyasi-ideoloji sistemin zərurətinə işarə edib. İkinci məruzə ilə Ümid Partiyasının ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı çıxış edib.

Rüfət Muradlı 28 May və Azərbaycan Cümhuriyyətinin elan olunmasına işarə edərək, bunu həm dövlətçilik və həm də millət adına böyük uğur olduğunu qeyd edib. O, çıxışında Azərbaycan Xalq Demokratik Cümhuriyyətinin təsis olunmasını Avropada yeni milli və modern dövlətlərin yaranması ilə, Məhəmməd Əmin Rəsulzadəni isə Avropanın görkəmli siyasətçiləri ilə müqayisə edib. Çıxışının davamında Məhəmməd Əmin Rəsulzadənin Güney Azərbaycandakı fəaliyyətləri haqda danışan Rüfət Muradlı, onun bu haqda "İran türkləri" və "Azərbaycan şairi Nizami" əsərlərindən də sitatlar gətirib.

Daha sonra məruzələr ətrafında çıxışlar başlanıb. Çıxış edənlərdən İsveç Azərbaycan Federasiyasının sədri Səttar Sevigin, İsveçdə yaşayan azərbaycanlı rejissor Rahim Sadıqbəyli, soydaşlarımız Vidadi Adıgözəlli, Əsəd Sadiqi və başqaları 28 May, Azərbaycan Cümhuriyyətinin yaranması və Cümhuriyyət dəyərləri, eyni zamanda Cümhuriyyət ənənələrinin Güney Azərbaycandakı siyasi proseslərə təsirləri haqda öz fikirlərini bölüşüblər. Dörd saata yaxın davam edən seminar, iştirakçıların məruzə ətrafında maraq doğuran suallarının cavablandırılması, habelə son günlər sözdə soyqırımı məsələsində ədalətsiz mövqe sərgiləyən İsveçdə çap olunan və bütün Skandinaviyanın müştərək mətbu orqanı sayılan "Historia" dərgisinə etiraz məktubunun imzalanması ilə sona çatıb. Seminarın sonunda 1945-46-cı illərdə Güney Azərbaycanda qurulan Milli Hökumətin himni səsləndirilib.

**28 May həftəsi davam edir.**







**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

### Başsağlığı

**Tanınmış jurnalist və hüquq müdafiəçisi İlqar Nəsibovun ailəsinə ağır itki üz verib. Onun anası Fatma xanım vəfat edib. Ümid Partiyası sədrinin müavini, Naxçıvan Muxtar Respublikası sədri Faiq Əliyev Fatma xanımın vəfatından kədərləndiyini bildirir, İlqar bəyə, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!**



# Əhalinin gəlirləri

Zamin HACI
zaminhaci@gmail.com

"Nə qədər olsa da qəm, qüssə, kədər,
Dünyada dərd varmı yoxsulluq qədər?
Yazıq insanları bu dərdli tilsim
Qoymur nə yaşasın, nə də ki, ölsün"

*(Mirzə Şəfi Vazeh, "Nəğmələr" kitabından)*

**Azərbaycanın necə idarə edildiyini, dövlətçilik prinsiplərinin hansı ölçülərlə qoyulduğunu öyrənmək üçün Dövlət Gömrük Komitəsinin saytına baxmaq yetərlidir. Orda komitə rəhbərliyi haqda şəkilli-məkilli məlumatlar qoyulmuşdur və baxdıqca, oxuduqca zövq alırsan. Çünki məlum olur komitə sədrinin 5 müavini vardır, bunların 4-ü naxçıvanlıdır, hətta ikisi eyni kənddə doğulmuşdur. Qalan 1 nəfərin isə harda doğulduğunu yazmayıblar, böyük ehtimal o da həmin kəndin - Nehrəmin sakinidir. Bu, bilirsiniz nə deməkdir? Qədim zamanlarda padşahlar haranısa tutanda qoşun şeflərinə, şücaət göstərənlərə, çox vaxt isə bütün orduya alınan şəhəri yağmalamaq üçün icazə verərdilər. Amma o vaxtlar yağmalama müəyyən müddətdə aparılırdı, bizim misalda isə müddətsizdir.**

Eyni halı Bakı Şəhər Polisinə də aid eləmək olar. Orada rəhbər vəzifələrdə bir nəfər də Bakıda doğulmuş adam yoxdur. Heç olmazsa damazlıq məqsədiylə. "Qorotdel"in rəhbər heyəti 3 naxçıvanlı və 1 ermənistanlıdan ibarətdir. Əlbəttə, Azərbaycanı regionlara bölməyək, hamımız naxçıvanlıyıq. Ola bilər Nehrəm kəndində gömrükçülük ixtisasını xüsusi maraqla öyrənən çoxlu insanlar yaşamaqdadır. Yeri gəlmişkən, gömrükdəki həmin müavinlərdən biri qabaqlar baytar işləmiş, 50 yaşında isə qəfildən elm həvəsi yaranmış və üstəlik Təfəkkür Universitetinin hüquq fakültəsini bitirmişdir. Ümumən, bu Təfəkkür Universitetində insanlara ancaq təfəkkür verilir. Sağ olsunlar.

Bu yerdə bəzi sadist-mazoxist ünsür jurnalistlər "əcəb edirlər", "bizə bu da azdır" kimi sözlər yazırlar. Mənim qətiyyən onların sıralarına qoşulmaq fikrim yoxdur. Mən Avropa Oyunlarına hazırlaşan dövlətçi təfəkkürlü insanlarımızın yanındayam. Doğrudur, "Samsunq" şirkətinə müəyyən qədər kredit borcum vardır, lakin hesab edirəm hörmətli "Bandotdel" buna görə məni küçədən tutub, başıma çuval keçirdib idarəyə aparmaz. Bəyəm mən Rəsulzadənin heykəliyəm ki, başıma çuval keçirsinlər? Biz dövlətçiliyə sadiq adamlarıq. Lazım gəlsə, dövlətçiliyin möhkəmlənməsi naminə krediti qabaqcadan ödəməyə də hazırıq. Bu məqsədlə hamama vurduğumuz kafeli söküb satmağa belə hazırıq. Əgər dövlət 500 maşın penoplastı bir gündə sökürsə, biz iki kvadratmetr kafeli söksək nə olacaq? Camaat bulvar düzəldir!

Bu mənada deputatxananın ağır yaz sessiyasından sonra tətilə çıxmasını alqışlayırıq. Çox işlədilər yazıqlar. 10 iclasda 350 qanun qayırılmışdır ki, bu da ötən ilin müvafiq dövründə qayırılan qanunlardan 7 faiz çoxdur. Ümumilikdə hər deputat başına 2,5 qanun düşmüşdür. Qüvvədə olan qanunların poliuretan üzlüklərinin sökülməsi işlərində böyük irəliləyiş olmuşdur.

Orta məktəb şagirdlərinin məzun olub siniflərin qabağında "Nol altı" təkəri qaldırdıqları həmin əziz dünənki gündə deputatxana daha bir mühüm hadisə törətmişdir: 2014-cü ilin dövlət büdcəsinin icrası haqda qanun səsə qoyulub qəbul edilmişdir. *(İstəsələr heç səsə qoymazdılar, amma bizdə demokratiya hər şeydən üstündür).* Əhali 2015-ci ilin ötən 5 ayı ərzində çox narahat idi ki, görəsən 2014-cü ilin büdcəsi haçan icra ediləcəkdir, şükür, bu narahatlıq aradan qalxdı. Halbuki Almaniya bundestaqı hələ 2009-cu ilin büdcəsinin icrasına baxır. Polşa seymi isə 1996-cı ilin ikinci yarısında qalıb.

Büdcə haqda danışan maliyyə naziri Samir müəllim demişdir ki, ötən il əhalinin gəlirləri 39 milyarda çatmışdır. Demək, manatı ona görə öldürdülər, əhalinin gəlirləri daha çox artmasın deyə. Amma bu, əlbəttə, fərziyyədir. Gələn il bu vaxt əhalinin gəlirləri daha çox artacaqdır. Sadəcə, bu əhalinin harda yaşadığını öyrənmək lazımdır. Ümidvarıq "Bankotdel"də işləyən yoldaşlar bizə və deputatlara yardım əlini uzadacaqdır.



# Azərbaycan xarici siyasət kursunu dəyişirmi...

## İqtidarın Moskva - Vaşinqton- Brüssel seçimi qarşısında ağırlığı Kremlə verdiyi barədə iddialar artıb; "Stratfor": "Son görüşlərin tonu və xarakteri ölkəni Rusiyaya doğru meyllənmiş kimi göstərir"

**Azərbaycanın xarici siyasət kursunda nəzərəçarpacaq dəyişikliklər baş verməkdədir. Amerika ilə münasibətlərdə yaranmış soyuqluq dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın bu ilin fevralında baş tutan Bakı səfəri də aradan qaldırmadı. Halbuki Nuladın səfəri zamanı vətəndaş cəmiyyəti və demokratikləşmə məsələləri üzrə Amerika-Azərbaycan xüsusi dialoq formatının yaradılması ilə bağlı ilkin razılıq əldə olunmuşdu.**

Amma bu səfərdən sonra da Dövlət Departamentindən və Amerika mətbuatından gələn qınaqlara rəsmi Bakı daha sərt tonda cavab verdi. Bu yaxınlarda isə məlum oldu ki, ABŞ dövlət katibinin insan hüquqları üzrə köməkçisi Tom Malinovskinin mayın ortasında Bakıya nəzərdə tutulan səfəri də təxirə salınıb. Tom Malinovski vətəndaş cəmiyyəti və Qərb institutlarına təzyiqlərin davam etməsini müzakirə etmək üçün Bakıya gəlməyi planlaşdırmışdı. Lakin son anda məlumat yayıldı ki, Azərbaycanın görüşdən imtina etməsi səbəbindən səfər ləğv edilib. Xəbəri agentliklərin birinə şərh edən amerikalı ekspert "səfərin ləğvi düzgün qərardır, çünki indiki durumda Bakı ilə dialoq mənasızdır" deyə, bildirmişdi.

Rəsmi Bakının Avropa ilə münasibətlərindəki gərginlik Avropa Birliyinin Riqa sammitində bir daha təsdiqləndi. Dövlət başçısı İlham Əliyevin Riqaya getməkdən imtinası son zamanlar Qərbdə Azərbaycana qarşı qərəzli kampaniyanın həyata keçirilməsinə, Avropa mərkəzlərindən idarə olunan QHT-lərin geniş anti-Azərbaycan fəaliyyətinə etiraz kimi qiymətləndirildi.

Sammitdə Azərbaycanı təmsil edən Elmar Məmmədyarov isə qəti bəyan etdi ki, Avropa Birliyi ilə assosiativ üzvlüklə bağlı saziş imzalanmayacaq.

Maraqlıdır ki, Qərblə qarşıdurma fonunda rəsmi Bakının Rusiya ilə münasibətləri nəzərəçarpacaq dərəcədə yaxınlaşıb. Rusiya Təhlükəsizlik Şurasının katibi Patruşevin Bakıya səfəri, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Moskvada çox yüksək səviyyədə qəbulu, bu görüşdə verilən mesajlar iqtidarın Moskva-Vaşinqton-Brüssel seçimi qarşısında ağırlığı Kremlə verdiyi barədə iddiaları artırıb. Bu xüsusda Azərbaycanın son vaxtlar İsraillə əlaqələrində kifayət qədər hərəkətlilik yaranıb ki, bu da maraq doğurur. Hələ ki ekspertlər xarici siyasətdə bu dəyişikliyin səbəbləri barədə birmənalı fikir bildirmirlər. Amma ümid edilir ki, hazırda Bakı düzgün seçim edib və öz maraqlarını qoruya bilir.

**Prezident İlham Əliyev 28 mayla bağlı keçirilən qəbulda Azərbaycanın xarici siyasət kursunun konturlarını da açıqlayıb.** "Biz bütün ölkələrlə bundan sonra da bərabərhüquqlu əlaqələrin inkişafını təmin edəcəyik. Bu, xarici siyasətimizin əsas prinsiplərindən biridir. Biz daha çox ikitərəfli formata üstünlük veririk. Biz görürük ki, ikitərəfli formatda çox böyük nailiyyətlər əldə etmək olar - həm siyasi əlaqələr, həm də iqtisadi investisiya baxımından. Azərbaycanın ikitərəfli formatda heç bir ölkə ilə heç bir problemi yoxdur. Əksinə, biz bütün ölkələrlə çox sağlam əlaqələr yarada bilmişik. Bu əlaqələr əlbəttə ki, prinsiplər üzərində qurulmalıdır və qurulubdur. Bizim siyasətimiz həmişə bundan ibarət olmuşdur ki, burada bərabərhüquqlu, bir-birinə hörmət və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında üfüqi əlaqələr olmalıdır. Biz buna nail oluruq" deyə, dövlət başçısı bildirib.

"Azərbaycan son vaxtlar diplomatik isteriya içində olub. Azərbaycan rəsmiləri bütün günü Rusiya və avropalı həmkarları ilə görüşlər keçiriblər". Bunu isə "Stratfor" Araşdırmalar Mərkəzi yazıb. (azadliq.org) "Azərbaycan uzun müddət Avropa və Avrasiya sərhədində nüfuz rəqabətində həm məkan, həm də enerji resursları baxımından əsas ölkə hesab olunub. Ukraynaya görə Moskva ilə Qərbin münasibətləri pisləşəndən Bakının əhəmiyyəti xeyli artıb. Bu münaqişə dövründə Azərbaycan Şərqi Avropa və Qafqazda neytrallığını saxlayan yeganə ölkədir. Ukrayna, Moldova və Gürcüstan Qərbə inteqrasiya istəyir, Belarusla Azərbaycan Rusiyaya yaxınlaşır. Şərqi Avropa da bölündüyündən, Bakı hər iki tərəfin intensiv təqib hədəfinə çevrilib" deyə, "Startfor" yazır.

**"Startfor" da iddia edir ki, Azərbaycan uzun müddət Rusiya və Qərb rəsmiləri ilə fəal danışıqlar apararaq hər iki tərəf arasında balans saxlamağa çalışıb. Ancaq son görüşlərin tonu və xarakteri ölkəni Rusiyaya doğru meyllənmiş kimi göstərir.** "Bu meylin bir indikatoru Azərbaycan prezidenti İlham Əliyevin Moskvada Qələbə paradına qatılması oldu. Həmin mərasimi bir sıra Qərb liderləri boykot etdi və tədbir Rusiyanın sadiq müttəfiqlərinin yığıncağı kimi qələmə verildi. Rusiya prezidenti də dərhal reaksiya verərək iyunda Avropa Oyunlarının açılışına qatılacağını bildirdi. Bundan başqa, Putin Azərbaycanın səfiri Polad Bülbüloğlunu Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlığın gücləndirilməsinə töhfəsinə görə "Şərəf" ordeni ilə təltif etdi".

**Analitik Mərkəz də iddia edir ki, diplomatik incəlikləri gözləyən Azərbaycan üçün bu qeyri-xarakterik davranışın bir neçə mümkün səbəbləri ola bilər.** "Biri Qərbin media və qeyri-hökumət təşkilatlarının insan haqları, media azadlığı və demokratiya ilə bağlı son tənqidləridir. Əvvəllər də hökumət tənqidlərə məruz qalıb, ancaq Avropa Oyunları qabağı Bakı, görünür, belə tənqidlərə daha həssasdır. Bəzi



rəsmilər bildiriblər ki, Qərb təşkilatları ölkəyə zərbə vurmaq, onu devirmək istəyir. Hətta ABŞ dövlət katibi Con Kerrinin adı da çəkilib. Dövlət Departamenti bu ittihamları rədd etsə də, Bakı ilə Qərb arasında insan haqları məsələsində uçurum dərinləşməkdədir, Məmmədyarov Qərbi "soyuq müharibə dövrünə xas təbliğat"da ittiham edib».

**"Stratfor" hesab edir ki, Azərbaycan balans strategiyasından əl çəkdiyini göstərən heç hansı konkret qərar verməyib.** "Ancaq Bakı və Moskvanın qərarlar və bəyanatlarını diqqətlə izləmək lazımdır. Çünki bu bəyanat və qərarlar təkcə Azərbaycana deyil, Rusiya ilə Qərb arasında daha geniş regional və qlobal qarşıdurmalara təsir göstərir".

❑ Xəbər xidməti

# Qarabağda yeni müharibə xəbərdarlıqları

Bakı-Moskva anlaşmasının uzanmasının daha bir mühüm nədəni; rusiyalı nüfuzlu hərbi ekspertin "Savaş Moskvasız da alovlana bilər", "Yayda müharibə başlayacaq" tipli bəyanatları nəyə işarədir?




**İndi bir çox siyasi təhlilçilər I Bakı Avropa Oyunlarından sonra Qarabağ münaqişəsi zonasında vəziyyətin necə inkişaf edəcəyini proqnozlaşdırmağa çalışırlar. Bunun mühüm səbəblərindən biri də yay mövsümünün hərbi əməliyyatlar üçün ən əlverişli hesab edilməsidir.**

Təbii ki, oyunların keçirildiyi müddətdə müharibə ehtimalı sıfıra bərabərdir. Ona görə ki, mötəbər idman yarışının iştirakçıları kimi Rusiya və Ermənistan (Putin üstəlik açılış mərasiminə qatılacaq), ələlxüsus da oyunlara ev sahibliyi edən Azərbaycan bunda maraqlı deyil. Bəs sonra?

25 illik səmərəsiz sülh danışıqlarından bezən Azərbaycan sözsüz ki, öz ərazilərini güc yolu ilə azad edə bilər. Bir şərtlə ki, konfliktin memarı Rusiya neytral vəziyyətə gətirilsin. Gətirilibmi? Yeni savaş variantında Kreml neytrallıq nümayiş etdirəcəkmi? Bu suallara birmənalı təsdiqi cavab yoxdur. Hər halda, Rusiya-Azərbaycan münasibətlərinin hazırkı səviyyəsi belə əminliyi yaratmır - baxmayaraq ki, Bakı ilə Moskva arasında silah ticarəti ilə bağlı çoxmilyardlıq anlaşma var və işləyir.

Məsələ də ondadır ki, Krımın işğalı ilə yaranan yeni geosiyasi vəziyyətdə nə Rusiya Azərbaycanı Avrasiya layihələrinə qoşmaq yönündə hansısa uğura çatıb, nə də Bakı Kremllə Qarabağ məsələsində hansısa anlaşmaya nail olub. Bu yöndə hələlik, yalnız ehtiyatlı ehtimallar və kövrək ümidlər, lap dəqiqi, boş vədlər səslənməkdə, bu az da "əsəb savaşı" getməkdədir.

***

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun son Moskva səfəri və bu səfər çərçivəsində onun yüksək rütbəli rusiyalı rəsmilərlə görüşlərinin nəticəsi, yaxud nəticəsizliyi qənaətimizi möhkəmləndirir. Səfər göstərdi ki, Rusiya və Azərbaycanın Avrasiya Birliyi və Dağlıq Qarabağ məsələsində mövqeləri dəyişməyib. Ən vacibi, bəlli oldu ki, Kreml münaqişənin həlli yönündə yeni və səmərəli təklifdə bulunmağa da hazırlaşmır. Görəsən, niyə?

**Rusiyalı tanınmış hərbi eksperti Pavel Felqenqauerin şərhi bu xüsusda bəzi qaranlıq məqamlara işıq salır. Ekspert ölkəmizin şimal qonşumuz üçün önəmini qeyd edərək deyir:** "Moskva əlbəttə ki, rəsmi Bakı ilə münasibətləri möhkəmlətmək istəyir və imkan düşən kimi, Azərbaycanı Kreml layihələrinə inteqrasiya eləmək fikrindədir. Rusiya sovet dövründəki dominant təsirini bərpa eləməkdə maraqlıdır. Ancaq hələlik bu, nə Gürcüstanın, nə də Azərbaycanın nümunəsində bir elə alınmır".

**Lakin onun sözlərinə görə, hazırda Moskva üçün prioritet Dağlıq Qarabağ yox, Ukrayna məsələsi, Qərb və Çinlə münasibətlərdir:** "Qarabağ indi Rusiya üçün yüz faiz birinci yerdə deyil. Kremlin Qafqazla bağlı hazırda yalnız bir hədəfi var - orada eskalasiyaya imkan verməmək. Çünki bu, Moskva üçün ən pis variant olardı. Bizim artıq pulumuz, artıq ordumuz yoxdu ki, o variantda müdaxilə edək. Mən ciddi şəkildə buna şübhə edirəm, hərçənd yerli qüvvələr hesab edir ki, situasiya kəskinləşsə, onun arxasından məhz Moskva çıxacaq. Mən bəyan edirəm: vəziyyətin kəskinləşməsi Moskvanın iradəsindən kənarda da baş verə bilər".

**Analitik Rusiya-Azərbaycan tərəfdaşlıq münasibətlərinin perspektivinə də toxunub:** "Sözsüz ki, Rusiya Ermənistan qədər Azərbaycanla da müttəfiqlik əlaqələrinin olmasını istəyir. Bakı indi Qarabağ təklifini irəli sürür. Çətin ki, Rusiya ona getsin, çünki bu, çox ciddi təklifdir. Həm də ciddi zəmanətlərsiz təklifdir. Qeyd etdiyim kimi, indilikdə Qafqaz Rusiya üçün prioritet deyil. Putin var gücü ilə Qərblə münasibətlər istiqamətində işləyir".

***

Hərbi ekspertin "Qarabağda müharibə Moskvasız da alovlana bilər" sözləri əslində Bakının Qarabağ təklifini qulaqardı edən Kremlin Avrasiya layihələrindən "yan gəzən" Azərbaycana xəbərdarlığı kimi də yozula bilər. Yəni ya qeyd-şərtsiz bizim yanımızdasınız, ya da müharibə "bizsiz alovlanacaq". Ancaq ciddi təhlilçilərin hamısı bilir ki, postsovet coğrafiyasında müharibə məsələlərinə kim "baxır". Bu, əlbəttə ki, əli hər yerə çatan Rusiyadır.

**Söz düşmüşkən, bu il mayın əvvəllərində Felqenqauer Rusiya ordusunun Ukraynada genişmiqyaslı hərbi əməliyyatlara başlayacağını demişdi. Onun fikrincə, yaxın aylarda böyük müharibə gözlənilməsə də, Moskva Ukrayna münaqişəsinə birbaşa təsir etmək barədə hələlik qərar qəbul etməsə də, ordu texniki olaraq buna hazırdır:** "Rusiya ordusu yayda Ukraynaya girə bilər". Felqenqauer onu da əlavə eləmişdi ki, Ukraynada Rusiya meylli döyüşçülər müharibə barədə özləri qərar verməyəcək: "Çünki onlara Rusiyanın hərbi dəstəyi lazımdır".

Belə bir dəstək yeni müharibədə yüzdə yüz erməni separatçılarına da lazım olacaq. Deməli, ermənilər də Donbasın silahlı separatçıları kimi heç vaxt Rusiyanın izni olmadan Azərbaycanla savaşa girməyəcəklər.

İstisna deyil ki, Rusiya Qarabağ məsələsində dönüş yaratmağı məhz elə Ukraynadan sonraya saxlayıb. O zaman Azərbaycanı israrla Avrasiya Birliyinə çağıran Moskvanın Qarabağa dair yeni həll modeli nədən ibarət ola bilər?

**Bunu yəqin ki, önümüzdəki yay aylarında biləcəyik.**

❑ **Analitik xidmət**

# İƏT erməni təcavüzü barədə qətnamə qəbul edib

## Sənəddə İƏT dövlətləri Ermənistana silah satmamağa və bu ölkəyə silah satışı qismində ərazilərindən tranzit dövlət kimi istifadəyə yol verməməyə çağırılır

**27-28 may 2015-ci il tarixlərində Küveytdə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının "Tolerantlığın gücləndirilməsi və terrorizmdən imtina edilməsinə ortaq baxış" başlıqlı 42-ci toplantısının yekun Bəyannaməsi qəbul edilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Bəyannamənin preambulasında BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmətin vacibliyi bir daha vurğulanır.**

Sessiyada "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" adı altında qəbul edilmiş qətnamədə Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü kəskin şəkildə pislənilir, Ermənistan silahlı qüvvələri tərəfindən mülki Azərbaycan vətəndaşlarına qarşı törədilmiş vəhşiliklər insanlığa qarşı cinayət kimi qiymətləndirilir və BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməsi tələb edilir. Sənəddə eyni zamanda Azərbaycana münaqişə zamanı dəymiş zərərin ödənilməsi üçün Ermənistandan təzminat tələb etmə hüququ tanınır və bu təzminatın ödənilməsi üzrə məsuliyyətin Ermənistan üzərinə düşdüyü qeyd olunur.




Həmçinin qətnamədə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz və işğalın davam etdirilməsinin qarşısının alınması üçün İƏT-in üzv dövlətləri Ermənistana silah satmamağa və bu ölkəyə silah satışı qismində ərazilərindən tranzit dövlət kimi istifadəyə yol verməməyə çağırılırlar.

"Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində İslam tarixinə və mədəniyyətinə aid abidələrin dağıdılması" adı altında qəbul edilmiş sənəddə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki tarixi, mədəni, arxeoloji, antropoloji və etnoqrafik abidələrin, maddi-mədəniyyət nümunələrinin İslam irsinin ayrılmaz tərkib hissəsi olduğu bildirilir və bu irsin dağıdılması kəskin tənqid edilir.

Bu kimi əməlləri ilə Ermənistan Respublikasının silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında konvensiya və onun əlavə protokollarını kobud şəkildə pozduğu qeyd edilir. Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasının 822(1993), 853(1993), 874(1993) və 884(1993) saylı qətnamələrinin qəti şəkildə və qeyd-şərtsiz icra edilməsi tələb olunur. Ermənistandan o da tələb olunur ki, beynəlxalq turizm sərgiləri və tədbirlərdə Azərbaycan tarixinə və mədəniyyətinə aid olan irsi özününkü kimi təqdim etmək fəaliyyətinə son qoysun.

Küveytdə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 42-ci toplantısında Azərbaycan Respublikasını xarici işlər naziri Elmar Məmmədyarov təmsil edib.

# NATO 2020-ci ilə qədər genişlənməyəcək?



**Hüseynbala SƏLİMOV**

**Adətən sammitlərdən sonra bütün diplomatlar gurultulu bəyanatlar verməyi sevirlər. Bu mənada NATO-nun Türkiyə sammiti də istisna olmadı-tədbirin və görüşlərin gedişində diqqət çəkən məqamlar az olsa da, sammit bitəndən sonra bəlli oldu ki, məsələn, Gürcüstan mütləq Alyansa üzv olacaq... Amma nə vaxt, hansı şəraitdə, bax, bunu deyən olmadı...**

Bizə elə gəlir ki, bu xüsusda çox maraqlı xəbəri Ukraynadan aldıq. Bu yaxınlarda bu ölkənin prezidenti P.Poroshenko milli strategiya konsepsiyasını təsdiq etdi və bu sənəddən məlum oldu ki, Ukrayna ordusunu NATO standartlarına yaxınlaşdırmaq üçün təxminən beş il vaxt götürür. Bundan sonra ölkə NATO-ya və Avropa Birliyinə üzv olmaq üçün ciddi fəaliyyətə başlayacaq...

Buradan belə nəticə hasil etdik ki, yaxın beş ildə NATO-nun genişlənməsini və ora MDB ölkələrinin daxil olmasını gözləməyə dəyməz. Düzdür, genişlənmə prosesi bir az əhatəlidir, təkcə MDB ölkələrilə məhdudlaşmır, gəl, bizi daha çox məhz onların Şimali Atlantika Bloku ilə münasibətləri maraqlandırır...

Bu vaxta qədər məsələdən bir o qədər də hali olmayan təhlilçilər elə hey gileylənirdilər ki, Alyans Ukraynanın və Gürcüstanın Blokun sıralarına daxil olmasını yubadır...

Amma məsələ daha mürəkkəbdir. Ukrayna üzv olmaq üçün faktiki olaraq Bloka müraciət etməyib. Əvvəlki hakimiyyətlərdən daha çox V.Yuşşenkonun dövründə ölkənin NATO sıralarına qatılmaq ehtimalı böyük idi...

Amma ölkə o vaxt da rəsmi müraciət etməmişdi. Sonrakı dövrlərdə də yalnız bəyanatlar olmuşdu...

Yalnız Gürcüstan NATO-ya üzv olmaqda israrlıdır. Buna da Avropanın bəzi ölkələri razılıq vermir, ona görə də, məsələ, necə deyərlər, düyünə düşüb və o, neçə illərdir ki, ölü nöqtədən tərpənmir...

NATO-ya üzvlük ölkələrə nə verər, nə verməz, bu, artıq kifayət qədər bəlli. Elə bu səbəbdən də onun üzərində dayanmayacağıq. Sadəcə, üzvlükdən irəli gələn dividentlər barədə bir-iki kəlmə demək olardı, amma buna da ehtiyac yox, çünki onu bir cümlə ilə izah etmək mümkündür - belə ölkələr çox etibarlı təhlükəsizlik çətiri altına daxil olurlar...

Məni daha çox bəzi siyasətçilərin davranışı maraqlandırır. V.Yuşşenko öz hakimiyyəti dövründə faktiki olaraq heç nə etmədi. V.Yanukoviç isə ölkədəki korrupsiyanı və cəbhələşməni artırdı-onun dövründə Qərb-Şərq bölgüsü çox qabarıq görünməyə başladı. İndikilər isə hakimiyyətə gəliblər, amma nə edəcəklərini bilmirlər...

Demirəm ki, Ukraynanın son illərdəki addımları tamam səhv idi. Yox, heç də belə deyil, ölkə nə vaxtsa bu yola çıxmalı idi. Amma nə vaxt? Məsələ də elə bundadır-əslində ukraynalı siyasətçilər etibarlı təminatlar alandan sonra bu addımları atmalı idilər. Bəli, onlar V.Yanukoviçi devirmək üçün "təminatlar", hətta bəlkə də "təzminatlar" aldılar, amma bundan uzağa gedə bilmədilər-indi nə AB var, nə də ki, NATO...

Hətta özləri də NATO-ya ciddi şəkildə müraciət etməkdən ehtiyat edirlər, çünki bilirlər ki, belə olsa, Rusiya qəzəbindən yeri-göyü cırmaqlamağa, özünü ora-bura vurmağa başlayacaq. Bir sözlə, ukraynalılar qorxurlar...

Amma bir məsəl var, deyirlər ki, qorxağın gözünə çöp düşər. Bu yola çıxanlar qorxmamalı idilər...

Bəli, prinsipcə, demək olardı ki, əslində Ukrayna təminatları hələ 1994-cü ildə almışdı. Tamamilə düzdür...

Amma təminatları verənlərdən biri-Rusiya birtərəfli qaydada onu pozdu, digərləri isə bəyanat verməkdən savayı bir şey edə bilmədilər. Əgər təminat almaq olmursa, deməli onlar yoxdur və burada tələsməyə dəyməz...

Ukrayna isə on illərlə gözləyəndən sonra tələsdi. Onlardan, yəni bu ölkənin siyasətçilərindən soruşmaq olardı ki, əgər əvvəl tələsmirdinizsə, dözür və azca ləng hərəkət edirdinizsə, birdən-birə sizə nə oldu?..

Əvvəllər də demişdik ki, bu assosiasiya sazişi faktiki olaraq bazarlar uğrunda mübarizədir. Bəli, bazar uğrunda mübarizədir. Əgər səni bu prosesdə bazar olmaqdan savayı bir şey gözləmirsə, heç tələsməyə dəyərmi?..

İndi də deyirlər ki, bəs bizə NATO standartlarına yaxınlaşmaq üçün beş il vaxt lazımdır. Deməli, beş il NATO söhbəti olmayacaq... Ola bilsin, beş ildən sonra P.Poroşenko da olmayacaq, başqası gəlib tamam başqa mahnı oxuyacaq.

# Parlamentdə gərginlik: iqtidar deputatı Ziya Məmmədovu hədəf aldı



**Mayın 29-da Milli Məclisin yaz sessiyasının son plenar iclası keçirilib. İclas başlayan kimi spiker Oqtay Əsədov mayın 19-da Bakının Binəqədi rayonunda baş verən yanğın haqda məlumat verib. O qeyd edib ki, prezident İlham Əliyev baş verən hadisənin araşdırılması ilə bağlı sərəncam verib və məsələni diqqətdə saxlayır: "Bu iş araşdırılır və günahkarlar cəzalandırılacaq. Bununla bağlı xüsusi komissiya da yaradılıb". Spikerin çıxışından sonra deputatlar onun təklifi ilə yanğın zamanı həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edib.**

**Sabir Rüstəmxanlı** cari məsələlərə vaxt ayrılmamasına və Binəqədidə baş verən faciənin müzakirə olunmamasına etiraz edib: "Binaların üzlənməsinə bu qədər vəsait xərclənib. Nəticədə binalar yararsız materialla üzlənib. Sonra da camaatı odun içinə atıblar. Başqa məsələlərdə müzakirə üçün yarım saat vaxt ayırırsınız. Niyə bu yanğın hadisəsi Milli Məclisdə müzakirə olunmasın? Sabah da deyəcəklər ki, deputatlar da bu işin içindədirlər, ona görə də heç nə danışmırlar. Kimin sözü varsa, bu mövzuda danışmalıdır. Niyə biz bunu müzakirə etməyək?"

**S.Rüstəmxanlı bir gün öncə Respublika gününün qeyd olunduğunu, ancaq Cümhuriyyət qurucularına aşağılayıcı münasibətin davam etdiyini diqqətə çatdırıb:** "Dünən Respublika günü qeyd edildi. Neçə vaxtdı deyilir, respublikanın qurucularından biri Məhəmməd Əmin Rəsulzadədir və onun Gəncədə bir büstü var, onun başına çuval keçirilib. Bu, ABŞ-ın türk əsgərinin başına çuval keçirməsi deməkdir. Əgər Gəncə İcra Hakimiyyəti Rəsulzadəni düşmən elan edibsə, desin. Əgər Məhəmməd Əmin Rəsulzadə düşmən elan edilibsə, deyilsin, biz də bilək. Əslində Rəsulzadənin orda böyük heykəli olmalıydı. Yoxdur, bir köhnə büst var, onun da başına illərdir çuval keçiriblər. İcra başçısı zəhmət çəkib öz əlləri ilə onun başındakı çuvalı çıxartsın". O.Əsədov isə onun iclası aparmasına yönəlik iradları qəbul etmədiyi üçün mübahisə baş verib.

**O.Əsədov S.Rüstəmxanlının iradına reaksiya verib:** "Siz hər dəfə Məclis başlayanda bu cür təpki verirsiniz. Mən təklif etdim ki, danışmaq üçün kimin sözü var? Amma heç kim təkid etmədi".

**S.Rüstəmxanlı spikerə yerindən cavab verib:** "Mən danışmaq üçün təkid etdim. Yalan danışmayın".

**Bu sözlər spikerlə millət vəkili arasında gərginliyin artmasına səbəb olub:** "Mən sizinlə mədəniyyətlə danışıram. Yalanı da siz danışırsınız. Siz yazıçısınız, mən sizə hörmət edirəm. Mətbuat nümayəndələrinə özünüzü göstərmək nəyə lazımdır ki? Hamı hamını yaxşı tanıyır".

**Gəncənin deputatı Musa Quliyev isə həmkarının Rəsulzadənin abidəsinin başına çuval keçirilməsi və onun təhqir edilməsi ilə bağlı səsləndirdiyi fikirlərə etiraz edib. O bildirib ki, S.Rüstəmxanlının burada M.Ə. Rəsulzadənin abidəsi ilə bağlı səsləndirdiyi fikrin heç bir əsası yoxdur:** "Ümumiyyətlə, Gəncədə Rəsulzadənin abidəsinin başına çuval keçirilməsi yalan informasiyadır və bu həqiqəti əks etdirmir. Adıçəkilən parkda uzun müddətdir təmir işləri gedir və o abidə də keyfiyyətsizdir. Ona görə də abidənin təmir işləri ilə bağlı üstü örtülüb. Digər tərəfdən də o bağın Gəncə İcra Hakimiyyətinə heç bir aidiyyəti yoxdur. O bağ Nəqliyyat Nazirliyinin balansındadır və baxımsız vəziyyətdədir. Əgər Sabir Rüstəmxanlının Məhəmməd Əminə ürəyi yanırsa, nəqliyyat naziri də onun qudasıdır, gedib ondan xahiş etsin, əl-ələ verib o parkı təmir etsinlər. Gəncə İcra Hakimiyyətinin balansında "İstiqlal" parkı var və gözəl təmir olunub. İnsanlar orada çox gözəl istirahət edir". **M.Quliyev əlavə edib ki, bu gün özlərini yarımmüxalifət və müxalifət adlandıran qüvvələrin öz kölgəsi olmadığından kiminsə kölgəsinə sığınıblar və başlayırlar ağızlarına nə gəldi populist fikirlər səsləndirməyə:** "Onların bu hərəkəti stəkanda fırtınaya bənzəyir. Buna ehtiyac yoxdur. Sabir Rüstəmxanlı ən azından Gəncədən olan deputat həmkarlarından vəziyyəti soruşaydı, dəqiqləşmiş fikir söyləyərdi. Belə yarımçıq fikirlərin yeri yoxdur".



**Sabir Rüstəmxanlı: "Əgər Rəsulzadə düşmən elan edilibsə, deyilsin, biz də bilək"**



**Musa Quliyev: "Sabir Rüstəmxanlının ürəyi yanırsa, nəqliyyat naziri də onun qudasıdır, gedib ondan xahiş etsin, əl-ələ verib o parkı təmir etsinlər"**

**M.Quliyevin fikirlərini dəstəkləyən spiker eyni zamanda ona məsləhət görüb ki, bəzi fikirlərində ehtiyatlı olsun:** "Sən özün də hərdən səhvə yol verirsən. Kim kimin nəyidir, bunun nə aidiyyəti var?" M.Quliyev isə yerindən "daş atmasınlar, kəsək atmayaq" reaksiyasını verdi.

Qeyd edək ki, bu zaman S.Rüstəmxanlı zalda yox idi.

**Daha sonra plenar iclasda ötən ilin dövlət büdcəsinin icrası müzakirə olunub. İqtisadi siyasət komitəsinin sədr müavini Çingiz Əsədullayev deyib ki, 2014-cü ilin dövlət büdcəsi 308,4 mln. manat kəsirlə icra olunub, 2015-ci il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabında qalığı 1,7 mlrd. manat təşkil edib:** "2014-cü il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan bu qalıq 2015-ci il dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsinə və dövlət borcuna xidmətlə bağlı yarana biləcək xərclərin ödənilməsinə yönəldiləcək. Həmçinin Azərbaycanın 2014-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsində büdcə gəlirlərinin 18 400 565,2 min manat, xərclərin 18 709 000,0 min manat olduğu qeyd edilir. Layihəyə əsasən, ötən il müdafiə xərcləri 1,5 mlrd. manat, təhsil xərcləri 1,554 mlrd. manat təşkil edib".

**Daha sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və maliyyə naziri Samir Şərifov büdcənin icra vəziyyəti barədə hesabatını təqdim edib. V.Gülməmmədov nəzərə çatdırıb ki, ötən il yol vergisi və torpaq vergisi ilə bağlı proqnozlar aşağı səviyyədə icra olunub:** "Dövlət borcunun ilbəil artmasını nəzərə alaraq, uzun müddətli perspektivdə dövlət borcunun aşağı salınması üçün müvafiq strategiyanın hazırlanmasını məqsədəuyğun sayırıq. 2014-cü il dövlət büdcəsinin icrası ilə bağlı Hesablama Palatası müsbət rəy verib".

S.Şərifov isə deyib ki, hesabat dövründə büdcə xərcləri 20,063 mlrd. manatlıq proqnoza qarşı 18 mlrd. 708 mln. 999 min 987 manat və yaxud 93,3% icra edilib. 2014-cü il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna qədər büdcənin vahid xəzinə hesabında 1 728 622 300 manat məbləğində qalıq yaranıb.

Vahid Əhmədov 2014-cü ildə dövlət büdcəsinin yüksək səviyyədə icra olunduğunu qeyd edib və qanun layihəsinin müzakirəsiz qəbul olunmasını təklif edib. Təkid edənləri nəzərə alan spiker müzakirələrə şərait yaradıb.

**Fazil Mustafa dövlət büdcəsi ilə bağlı müzakirələr zamanı Cənubi Qafqaz respublikaları ilə bağlı müqayisələrin verilməsini istəyib:** "Bank kreditləri ilə bağlı məsələnin büdcənin icrasına təsirinin də açıqlanması yaxşı olardı. Çünki bu kreditlər indi verilməyib". **Deputat digər ciddi bir problemə də toxunub:** "Müxtəlif səbəblərdən Türkiyəyə gedən və orada qeydiyyata düşmədən yaşayan Azərbaycan vətəndaşları var. Həmin Azərbaycan vətəndaşlarının 2500 nəfərədək məktəbyaşlı uşağı təhsil almır. Çünki valideynləri orada rəsmi qeydiyyata düşmürlər, bunda maraqlı deyillər". **F.Mustafa deyib ki, işləmək üçün Türkiyəyə getmiş həmin Azərbaycan vətəndaşları qeydiyyata düşsə, Azərbaycana geri qayıtmalıdırlar:** "O valideynlər də orada işlərini itirməmək üçün qeydiyyata düşmürlər. Hansısa formada bu uşaqların təhsil məsələsi həll olunmalıdır. Məktəb açılması da Türkiyə tərəfi ilə müzakirə oluna bilər. O uşaqların yalnız hansı xəstəxanada olduğu barədə sənəd var, başqa sənədləri yoxdur. Bu məqsədlə dövlət büdcəsindən vəsait ayrılmasının nəzərdən keçirilməsini təklif edirəm".

**Fərəc Quliyev** Neft Fondunun vəsaitlərinin bir hissəsini hələ də rus rublu ilə saxlamasını tənqid edib.

**Azay Quliyev** Şirvan şəhərində mənzil probleminin aradan qaldırılması üçün sosial evlərin tikilməsini təklif edib: "Ümumiyyətlə, sənaye şəhərlərinə xüsusi yanaşmanın olması vacibdir. Unutmayaq ki, Şirvan şəhəri mərkəzdən dotasiya almır".

**Qüdrət Həsənquliyev blokada şəraitində olan Naxçıvanın problemlərindən bəhs etdi və Muxtar Respublikaya diqqətin artırılmasını istədi. Deputat eyni zamanda Milli Şuranı və onun sədri Cəmil Həsənlini tənqid edib:** "Cəmil Həsənli deputat olan vaxtlarda mərhum prezident Heydər Əliyevin məzarını ziyarət edib, onun haqqında xoş fikirlər söyləsə də, hazırda qatı müxalifət mövqeyində dayanır. O, dəfələrlə bizimlə bərabər Heydər Əliyevin məzarını ziyarət edib. Onun yazdığı kitablarla da tanışıq. Ona görə də deputat seçilmədikdən sonra başlayıb ağlına və ağzına gələni danışmağa".

**Zahid Oruc Binəqədidə yaşayış binasında baş verən yanğına toxunub:** "Müxalifət əllərini qızdırmaq üçün bütün ölkəni yandırmağa hazırdır. O binalar tək xarici görkəm üçün üzlənməmişdi. Bu, həm də binalara qoyulan investisiya idi, vətəndaşların mənzillərinin dəyəri də artırdı. Bu, artıq başqa məsələdir ki, o üzlüklər necə vurulub".

"Ölkə xaricində olduğu kimi, ölkə daxilində də Azərbaycanın inkişafını gözü götürməyənlər var. Son vaxtlar şahidi oluruq ki, Avropa Parlamentinin deputatları Azərbaycan əleyhinə bəyanatlar verirlər, Avropa Parlamentində Azərbaycan əleyhinə qərarlar qəbul edilir". Bunu isə Siyavuş Novruzov söyləyib. Onun sözlərinə görə, Avropa Parlamentinin sədri Marin Şults spiker Oqtay Əsədovla görüşlərdə deyib ki, Avropa Parlamentinin deputatlarının söylədiklərinə fikir verməyin: "İndi Martin Şultsun maskası cırılıb. Martin Şults iyunun 10-da "İdman və insan hüquqları" mövzusunda tədbir təşkil edəcək. Azərbaycandan da müəyyən insanları dəvət edib. Bu, nə deməkdir?"

Müzakirələrdən sonra qanun layihəsi qəbul edilib.

**Tahir Rzayev söz alaraq bildirib ki, bəzi imkanlı adamlar Filippindən, İngiltərədən və digər ölkələrdən dayələr gətirirlər:** "Hətta xaricdən gətirilən dayələr uşaqlara Azərbaycan dilində danışmağa qadağa qoyurlar. Bütün bunlar milli-mədəni dəyərlərimizə ziddir, təhlükəli tendensiyadır. Bunun qarşısının alınması üçün tədbirlər görülməlidir".

**Fuad Muradov "Avtomobil nəqliyyatı haqqında" qanuna dəyişikliklər edilməsi barədə sənədin müzakirəsi zamanı deyib ki, Bakıda şəhərinin sərnişin nəqliyyatında olan problemlərlə bağlı bizim qanunvericilikdə xüsusi avadanlığın quraşdırılması nəzərdə tutulub:** "Yəni həmin sürücülərin vaxtlı-vaxtında istirahət etməsi və s. məsələlər var. Çox xahiş edirəm ki, bu məsələdə qanunun tələblərinin yerinə yetirilməsi ilə bağlı addımlar atılsın. Bu, insanın həyatı, fəaliyyəti ilə bağlı olan məsələdir".

**Gündəlikdəki digər məsələlərin müzakirəsi və qəbulundan sonra yaz sessiyası işini başa çatdırıb. Spiker Oqtay Əsədov deyib ki, yaz sessiyasında 10 plenar iclas keçirilib, 134 qanun qəbul olunub:** "Bu müddət ərzində 70-ə qədər nümayəndə heyəti 30-a yaxın ölkədə səfərdə olub. Hesab edirəm ki, yaz sessiyası uğurlu keçib". İclas Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə bağlı elan olunub. Qeyd edək ki, bu il üçün növbədənkənar sessiya çağırılmayacaq.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015

# Yanan binada kompensasiya qalmaqalı

## Kirayənişinlərlə ev sahibləri arasında problem həllini tapmır







*- Piano var?*

- Var.

*- Yorğan-döşək?*

- O da qalıb.

*- Bəs xalça?*

- 3 xalçam vardı...

Binəqədi rayonu ərazisində yanğın baş verən binanın həyətində dünən bu və buna bənzər dialoqlar yaşanırdı. Səbəb isə çox sadə idi: təhvil-təslim prosesi gedirdi. Yanmış binanın əksər sakinləri evlərindən götürmədikləri, daha doğrusu, götürə bilmədikləri, imtina etdikləri əşyaların siyahısını müvafiq idarə əməkdaşı ilə birgə siyahıya yazdırırdı. Sakinlərdən Afət Əliyeva müxbirimizlə söhbətində bildirdi ki, onlar Goradildə yerləşən pansionata köçüblər və durumlarından da razıdılar: "Orda şərait çox yaxşıdır. Dənizin qırağıdır. Bizə də yaxşı münasibət göstərirlər".

**Müsahibimiz hadisə baş verən günü dəhşətlə xatırlayır:** "13-cü mərtəbədə yaşayıram. Yanğın zamanı o dünyanı görüb gəldim. Lifti çağırdım, amma bilirdim ki, gəlməyəcək. Oturdum pilləkənin üstündə, əlimi açıb, kəlmeyi-şəhadətimi oxumağa başladım. Birdən qəfil lift gəldi, düşdüm aşağı. Qonşunun uşağını da xilas etdim".

**Sözügedən binada yaşayan Zəmanət Daşdəmirov isə kompensasiya məsələsi ilə bağlı problem yaşadığını dedi. 10-cu mərtəbədə yaşayan Zəmanət bəy binanın altında internet klubu işlətdiyini, yanğın zamanı klubun və içindəki ləvazimatların sıradan çıxdığını dedi:** "10 min manat kreditim var. Bakı Şəhər İcra Hakimiyyəti deyir ki, kluba görə heç bir kompensasiya ödənməyəcək. Axı bu ərazi də yanğından ziyan görüb. Necə belə ikili standartla yanaşmaq olar?"

**Zərərçəkən sakin bildirdi ki, piano və mebeli yaşadığı evdə qalıb. Digər əşyalarının əksəriyyəti isə yanğından zərər çəkib:** "Əşyalara görə kompensasiya vermirlər. İlkin olaraq 1000 manat pul aldıq. Amma hələ bizə çatası 20.000 manatı ala bilməmişik. Çünki ev bizim adımıza deyil, etibarnaməni təqdim etmək lazımdır".

6-cı mərtəbədə yaşayan Səriyyə Xəlilova da evində salamat əşyaların demək olar ki, qalmadığını dedi. Onun sözlərinə görə, 2 otaq və mətbəxi əşyalarla birgə tamam sıradan çıxıb. Bundan başqa, evdə qızları üçün yığıb saxladığı cehizlik əşyalar da yararsız haldadır: "Bir neçə saniyə içində 3 otağımız yandı. Bir-iki üst paltarı çıxara bilmişik. İndi onları yuyub-yuyub geyinirik".

**Müsahibimiz ilkin 1000 manatlıq kompensasiya və 20000 manatı artıq aldıqlarını dedi. İndi isə Goradildəki sanatoriyada məskunlaşıblar:** "Bizə münasibət yaxşıdır. Mən şikayət edə bilmərəm. Görürsən ki, adam qonaq gedir, iki gündən sonra narahatlıq yaranır. Amma burda şərait də, bizə qarşı münasibət də yaxşıdır. O gün pansionatın böyüyü gəldi və dedi ki, mən bura sizin qardaşınız olaraq gəlmişəm. Bizim adımızdan mətbuatda yalan bəyanatlar yayılır. Gah yazırlar ki, kimsə şikayət edib, kimsə narazıdır-filan. Əslində elə bir şey yoxdur".

S.Xəlilova dedi ki, 5-6 aya evlərinin təmirinin yekunlaşacağı bildirilib.

**Amma binanın kirayənişin sakinlərinin problemi ev sahibləri ilədir. Binanın yanında olarkən onlardan biri müxbirimizə bu barədə danışdı. Məmmədova İlhamə binanın 13-cü mərtəbəsində 2 ildir ki, kirayənişin kimi yaşayır:** "O yanğın günü bizim ailə nələr yaşadı, bir Allah bilir. Amma indi ev yiyəsi bizə düşən kompensasiyanı vermək istəmir. İlkin 1000 manatlıq kompensasiyanı güclə də olsa ala bildik. Daha sonra ev sahibimizlə 20.000 manat məbləğindəki kompensasiya məsələsində razılaşdıq. Qərara gəldik ki, pulun 8 mini bizə, 12 mini onlara çatacaq. Bununla bağlı notariusda da razılaşdıq, sənəd imzaladıq. Bu gün gedib pulu almalıydıq. Ev sahibimiz sözündən dönüb. Deyir ki, 5 min manat bəsinizdir, bu ev mənimdir, kompensasiyanın böyük qismi də mənə çatmalıdır. Halbuki o yanğından əzabı da biz yaşadıq, ölüm qorxusunu da. Bundan başqa, əksər əşyalarımız, məişət texnikamız da sıradan çıxıb. Ev sahibi gəlib və bəzi əşyalarını evdən çıxara bilib".

**Müsahibimiz dedi ki, ev sahibi Rusiyada yaşayır və hadisəni eşidən kimi ölkəyə gəlib:** "O yanğında mənim 21 yaşlı qızım içəridə qalmışdı. Uşağı hələ də o xəstəxanadan bu xəstəxanaya aparıb gətiririk. Psixoloqların, həkimlərin yanından çıxmırıq. Elə bilirlər asandır o yanğından sağ çıxmaq?"

❑ **Sevinc TELMANQIZI**

# Əfv niyə olmadı?

## Hüquq müdafiəçiləri Avropa Oyunları başlayana qədər əfv veriləcəyi qənaətindədir; **Novella Cəfəroğlu:** "Yüz faiz əfv olacaq"

**Respublika Günündə əfv sərəncamı imzalanacağı gözlənilsə də, bu baş vermədi. Hansı ki, buna ümidlər çox idi. Çünki qarşıdan bütün dünyanın diqqətində olacaq Avropa Oyunları gəlir.**

Bu, ötənlərdə ifadə olunan bir fikri gücləndirir: iddia edilir ki, hər hansı bir məsələ ilə bağlı xarici ölkələr, təşkilatlar tərəfindən təzyiqlər olarsa, iqtidar bu məsələni həyata keçirmək qərarında olsa belə, sonda imtina edir. Bu yolla həmin ölkə və təşkilatlara meydan oxuyur...



Novella Cəfəroğlu



Mirvari Qəhrəmanlı

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu** Binəqədidə baş verən məlum yanğın hadisəsinə görə əfvin başa çatdırılmadığını bildirdi. Hüquq müdafiəçisi Avropa Oyunlarına qədər əfv veriləcəyi qənaətindədir: "Mütləq əfv olacaq. Yanğına görə çatdıra bilmədilər. Yüz faiz əfv olacaq. Heç kəs narahat olmasın. Biz bunu bəhanə kimi qəbul etmirik. Sözün düzü, çatdıra bilməyiblər. Dövlət orqanlarının hamısı yanğın hadisəsində məşğul idilər. Mən sizə əminliklə deyirəm ki, əfv olacaq. Aramızda ciddi danışıqlar olub. Bilirik ki, olacaq".

**İşçi Qrupunun daha bir üzvü Mirvari Qəhrəmanlı da Avroya Oyunlarına qədər əfv ola biləcəyi ehtimallarından söz açdı:** "Daim bu məsələdə ehtiyatlı danışmışam. İnsanlarda qıcıq yaratmaq olmaz. Çünki hər sualın hədəfi var. Rəsmi qurumlardan cavab ala bilmədim. Həmkarlarımdan aldığım əsaslandırılmamış məlumatlara uyğun olaraq, deyə bilərəm ki, guya sənədlər hazır olmayıb. Bu da cavab deyil. Çünki sənəd hazırlamağa bir o qədər vaxt tələb olunmur. Təkliflər çoxdan verilmişdi. Sadəcə, hökumətin özünün daxili siyasətidir. Düşünə bilərəm ki, Avropa Oyunlarına qədər əfv sərəncamı verilər. Xarici təşkilatlardan bir məsələ ilə bağlı müraciət gələndə, hakimiyyət dairələri bunu birmənalı qəbul etmirlər. Hamı kimi, mən də istərdim ki, əfv olsun. Müstəqillik günümüzə bir töhfə olardı. İxtiyarım çatmır ki, indi əfv olacağını deyim. Əvvəllər hakimiyyətin siyasəti başqa cür idi. Beynəlxalq təşkilatların tələblərinə artıq kəskin cavab verilmir. Hakimiyyətin xarici siyasəti ilə də əlaqədar ola bilər. Düşünə bilərlər ki, bu hökumətin daxili işidir. Amma hamı bilir ki, insan haqları məsələsi daxili iş deyil. Heç bir ölkə deyə bilməz ki, ölkəmdə pozulan insan hüquqları daxili işimdir. Beynəlxalq təşkilatların may ayından böyük gözləntiləri var idi. Sənədlərin hazır olmaması xəbərini real qəbul etmirəm. Əfv siyahısı, məncə, hazırdır. Amnistiya olmasını daha çox istərdim. Ölkəmizin imici bu məsələdə böyük rol oynayır. Belə olmaz, yəqin ki, nəsə bir şey olacaq".

**Hüquq müdafiəçisi hakimiyyətin Avropa Oyunlarına siyasi məhbuslarla - əfv verilmədən gedə biləcəyini də vurğuladı:** "Ölkədə iqtidar Avropa Oyunlarını bayram kimi qələmə verir. Mən oyunların ölkəmizdə keçirilməsinin heç vaxt əleyhinə çıxmamışam. Çünki ölkəni tanıdan iri neft layihələri, müxtəlif tədbirlər olub. Bunun özü də bir layihədir. İqtidar bayram kimi qəbul edirsə, demək, siyasi məhbuslarla getməyi qeyri-mümkün görünür. Reallıqdır ki, məhbusların hamısı ilə əfv olmayacaq. Əgər əfv verilsə, beynəlxalq aləm də inanar ki, Avropa Oyunları ölkəmizdə bayram kimi qəbul edilir. Yaxşı olardı ki, bu oyunlara az sayda məhbusla gedək".

**M.Qəhrəmanlı Avropa Oyunlarına qədər gözləmə mövqeyində qalacaqlarını söylədi:** "Bizlik bir iş qalmayıb. Oyunlara qədər gözləyəcəyik. Görəcək bir işimiz də yoxdur. Avropa Oyunlarından sonra yenə də yığışıb, müzakirələr aparacağıq. Bu vaxta qədər edə biləcəyimizi etmişik".

❑ **Cavanşir ABBASLI**

# Deputatın oğlu və kürəkəni barədə mübhəm xəbərlər...

## Fərhad Qəribovun kürəkəninin də xaricə qaçdığı iddia olunur

**Deputat Fərhad Qəribovun oğlu Elnur Qəribovun həbs xəbərinin ardınca, onun kürəkəninin Dubaya qaçması xəbəri yayılıb. Elnur Qəribovun həbsinin səbəbi kimi onun Beynəlxalq Banka kredit borcu olduğu göstərilirdi. Deputat bu məlumatlara münasibət bildirərkən oğlunun kredit borcunun olmadığını deyib. "Oğlumun hüquq-mühafizə orqanları tərəfindən saxlanılması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir. Yayılan məlumatların hamısı yalandır. Oğlumun heç kimə borcu yoxdur" - deyə, deputat anspress-ə bildirmişdi.**



Fərhad Qəribov

Onun sözlərinə görə, oğlu Elnur Qəribov 8 il bundan əvvəl Cahangir Hacıyevlə şərikli iş qurub. Deputat bildirib ki, sonradan onların işi alınmayıb: "O zaman Cahangir Hacıyev oğlumu aldatdı və onların işi alınmadı. Onun barəsində cinayət işi başlanıb. İstintaq zaman onunla birgə işləyən və vaxtilə şərik olan şəxsləri də çağırıb sorğu-sual edirlər. Bu məqsədlə Elnur Qəribovdan da bu şəriklik barədə soruşublar. Lakin bu o demək deyil ki, oğlum barədə istintaq başlanıb, yaxud onu saxlayıblar. Hazırda hər iki oğum şəhərdədir. İnanmayan gəlib onları görə bilər".

Yayılan məlumatlarda deputatın kiçik oğlu Zöhrab Qəribovun da axtarışa verildiyi qeyd edilirdi. Xatırladaq ki, mətbuatda zaman-zaman deputat Fərhad Qəribovun külli miqdarda borcu olması və götürdüyü kreditləri qaytarmaması barədə məlumatlar yayılıb.

Qafqaznews.az saytı isə deputatın kürəkəni Vüqar Qurbanovun Dubaya sığınması haqda məlumat yayıb. Məlumatda V.Qurbanovun Dubaya sığınmasının səbəbi açıqlanmır.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015

# "Kapital Bank"da rəhbər dəyişikliyi: adi rotasiya, yoxsa...

**"Kapital Bank"ın rəhbərliyi dəyişdirildi. Müşahidə Şurasının sədri Mircamal Paşayevin istefa verməsi, onun yerinə holdinqin Bank Qrupunun rəhbəri Cəlal Qasımovun keçməsi mətbuatın gündəmində ən çox müzakirə olunan mövzulardan birinə çevrilib. Müzakirələrin əsas istiqaməti bir müddət öncə rəhbəri istefa verən Beynəlxalq Bankla bağlı baş verənlərin "Kapital Bank"da da ola biləcəyi ehtimalı ilə bağlıdır.**

## Natiq Cəfərli: "Beynəlxalq Bankla paralel bənzər hadisələr "Kapital Bank"la bağlı da gündəmə gələ bilər"
## Vüqar Bayramov: "Bu, sadəcə, bank daxilində həyata keçirilən kadr dəyişikliyidir"
## Vüsal Nağıyev: "İddia edildiyi kimi, "Kapital Bank"da heç bir yoxlama aparılmayıb"

**İqtisadçı ekspert Natiq Cəfərli tezliklə "Kapital Bank"la bağlı da həbslərin ola biləcəyini istisna eləmir:** "Bu proseslər öncəsi rəhbərliyin dəyişdirilməsi proseslərə bir işarə kimi görünə bilər. "Kapital Bank" Azərbaycanda Beynəlxalq Bankdan sonra ikinci ən böyük, xarici kredit kanallarından ən çox istifadə edən bankdır. Orada da kredit əməliyyatlarında müəyyən problemlər olması qaçılmazdır. Beynəlxalq Bankla paralel olaraq bənzər hadisələrin Kapital Bankla bağlı da baş verməsi yaxın vaxtlarda gündəmə gələ bilər".

**İqtisadçı ekspert Vüqar Bayramov isə bildirdi ki, bu dəyişiklik, sadəcə, bu qurumun daxili işidir və hər hansı təhlükəli məqamdan xəbər vermir:** "Düşünmürəm ki, "Kapital Bank"ın taleyi ilə Beynəlxalq Bankın taleyi eyni ola bilər. Əvvəla, "Kapital Bank" kreditlərin ayrılmasında və depozitlərin qəbul olunmasında daha çox manatla işləyir. Bank əsasən pensiyaların, sosial ödənişlərin vətəndaşlara verilməsi, vergilərin, cərimələrin ödənilməsi və sairlə məşğuldur. Burada hansısa yeyintinin baş verməsi praktiki olaraq mümkün deyil. Çünki praktiki olaraq pensiya və digər ödənişlər alan insanlar plastik kartlar vasitəsilə bankomatlardan pullarını çıxara bilirlər. "Kapital Bank"ın idarəetmə sistemində əvvəlki illərdə də zaman-zaman kadr dəyişikliyi müşahidə edilib. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Beynəlxalq Bankda rəhbər getdikdən sonra onun yerinə yeni təyinat olmadı. İndiki halda isə "Kapital Bank"da daxili kadr dəyişikliyi baş verib. Bu isə o deməkdir ki, "Kapital Bank"la bağlı belə bir narahatlıq yoxdur. Eyni zamanda "Kapital Bank"ın əməkdaşlıq etdiyi biznes subyektləri heç də qorxulu, öz öhdəliklərini yerinə yetirməyən sahibkarlar deyil. Bu səbəbdən güman etmirəm bu, bankla bağlı problem olsun. Bu dəyişikliklər sadəcə idarəetmə-menencment sistemində aparılan dəyişikliklərlə bağlıdır və sadəcə, bank daxilində həyata keçirilən bir kadr dəyişikliyidir".

**Marketinq və PR departamentinin direktoru Vüsal Nağıyev isə vurğuladı ki, "Kapital Bank"ın Müşahidə Şurasının rəhbərinin dəyişməsinin mətbuatda yer alan bu iddialarla heç bir əlaqəsi yoxdur:** "Əslində heç bir dəyişiklik baş verməyib. Sadəcə, Müşahidə Şurasının sədri dəyişib. Bu dəyişikliyin bankın fəaliyyətinə aidiyyəti yoxdur. Mircamal Paşayev bankın səhmdarı olan "Paşa Holdinq"in rəhbəridir və bu vəzifəsini davam etdirir. Sadəcə, o, "Paşa Holdinq" şirkətlər qrupuna aid olan "Kapital Bank"ın Müşahidə Şurasının sədri vəzifəsindən istefa verib. İddia edildiyi kimi, bankda heç bir yoxlama aparılmayıb, hər şey yaxşıdır, işlər qaydasında gedir".

Qeyd edək ki, mayın 27-də "Kapital Bank" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçirilib. Yığıncaqda bankın Müşahidə Şurasının (MŞ) tərkibinə dəyişiklik edilib. MŞ-nin sədri Mircamal Paşayev icraçı direktor olduğu "Pasha Holding" ASC-də işinin çox olması ilə əlaqədar istefa verib. Onun yerinə bir qədər əvvəl holdinqin Bank Qrupunun rəhbəri təyin edilmiş Cəlal Qasımov seçilib.

Xatırladaq ki, hazırda "Kapital Bank" ASC-nin səhmlərinin 99.84%-i "Paşa Holdinq"ə aiddir. Bankın nizamnamə kapitalı 185 mln. AZN-dir. 89 filialı və 5 şöbəsi ilə "Kapital Bank" Azərbaycanda ən böyük xidmət şəbəkəsinə malik maliyyə qurumudur. 2 milyondan çox aktiv ödəniş kartlarının sayı ilə də bank Azərbaycanda liderdir. Universal bank olan "Kapital Bank" həm fiziki, həm də korporativ müştərilərə xidmət göstərir. Eyni zamanda "Kapital Bank" dövlətin həyata keçirdiyi bir sıra sosial proqramlarda yaxından iştirak edir. "Kapital Bank" özəl qurum olsa da əksər kommunal, vergi, cərimə ödəmələrinin həyata keçirildiyi bankdır.

❑ Nərgiz LİFTİYEVA

# Dollarla kredit alanlar mütləq oxusun...

## Əkrəm Həsənov: "Konstitusiya Məhkəməsinin qərarına əsaslanıb kredit müqaviləsini etibarsız hesab etmək olar"

**"Konstitusiya Məhkəməsinin kreditlərlə bağlı qərarı borc alanlara kredit müqaviləsini etibarsız hesab etmək hüququ verir". Bu barədə hüquqşünas Əkrəm Həsənov Konstitusiya Məhkəməsinin dollar kreditləri ilə bağlı qərarını şərh edərkən bildirib.**

O qeyd edib ki, əmlakın alınmasını maliyyələşdirən kreditin xarici valyutada verilməsi qanunsuzdur: "Bu, o cümlədən Konstitusiya Məhkəməsinin son qərarından irəli gəlir və borc alanlara kredit müqaviləsinin etibarsız hesab olunaraq ödədikləri faizlərin və komisyon haqlarının geri qaytarılmasını tələb etmək hüququ verir. Belə ki, məhkəmə "hesab edir ki, pulun ödəniş vasitəsi kimi işlədilməsi hallarına hər hansı malın, işin, xidmətin və s. müqabilində ödənişin həyata keçirilməsi...aid olunur". Yəni deyir ki, konstitusiya bu zaman xarici valyutadan istifadəni qadağan edir".

**Ekspert qeyd edib ki, buna baxmayaraq, vətəndaş Azərbaycanda müəyyən əmlakı almaq istədikdə belə, banklar bu məqsədlə ona krediti bir çox hallarda dollarla verir:** "Halbuki alınan əmlakın dəyəri istənilən halda manatla ödənilməlidir. Vətəndaşa satınalma üçün manat lazımdırsa, ona hansı əsasla dollar verilir? Axı bu halda bank deyə bilməz ki, kreditin həqiqi məqsədini bilmirdi. Kredit kartı deyil ki, bank desin bəlkə vətəndaş krediti xaricdə istifadə edəcək. Bilirdi və vətəndaşa dollar sırıyıb. Əksər hallarda vətəndaşlarımız heç kreditin hansı valyutada götürülməsi məsələsinə varmayıb. Vətəndaş bunu bilirdisə belə, üzərinə hansı riskləri götürdüyünü bilmirdi. Vətəndaşa xarici valyuta lazım deyilsə, normal halda niyə bilə-bilə üzərinə valyuta riskini götürsün ki? Deməli, sözügedən kredit müqaviləsi Mülki Məcəllənin 347-ci maddəsinə əsasən vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanıb. Həmin maddəyə əsasən demək olar ki, burada "şəxs bağlamağı arzuladığı əqdin məzmunu barəsində səhv etmişdir" və "tərəflərin vicdanlılıq prinsipini rəhbər tutmaqla əqdin əsası kimi nəzərdən keçirdikləri hallar mövcud deyildir". Eyni zamanda həmin maddənin 5-ci bəndinə görə



Əkrəm Həsənov

"Predmetin əsas xüsusiyyətləri barəsində yanılma yalnız o zaman vacib sayılır ki, predmetin dəyərinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edir". Açıq-aşkardır ki, kreditin manatla deyil, xarici valyutada verilməsi *(özü də manatla alınmalı olan əmlakın qiyməti kimi)* müqavilə predmetinin dəyərinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edir".

**Ə.Həsənovun sözlərinə görə, borc alana kreditin valyutası haqda məlumat verilmədiyi hallarında əlavə olaraq aldatma faktı da mövcuddur:** "Buna görə də həmin müqaviləyə həmçinin Məcəllənin 339.2-ci maddəsi tətbiq edilməlidir. Həmin maddəyə görə, "Şəxs əqd bağlanması məqsədilə aldadıldıqda həmin əqdi mübahisələndirə bilər. Belə mübahisələndirmə əqdin aldatma olmadan bağlana bilməyəcəyini aşkar olduğu hallarda həyata keçirilir. Əgər tərəflərdən biri aşkar edilsəydi, digər tərəfin əqd bağlamayacağı hallar barəsində susmuşsa, aldadılmış tərəf əqdi mübahisələndirə bilər". Həm vacib əhəmiyyətli yanılmanın təsiri altında, həm də aldatma nəticəsində bağlanmış müqavilə Məcəllənin sözügedən maddələrinə görə etibarsızdır. Məcəllənin 337.5-ci maddəsinə əsasən əqd etibarsız olduqda, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmalıdır. Bu isə o deməkdir ki, borc alan kredit məbləğini, bank isə kredit üzrə borc alanın ödədiyi faizləri və komisyon haqları geri qaytarmalıdır. Beləliklə, dollarla ifadə edilmiş kredit müqavilələrinin etibarsızlığı nəticəsində borc alanlar ödənmiş faizlərin geri qaytarılmasına nail ola bilərlər".

**Onun sözlərinə görə, banklar hətta fərdi sahibkarlara kiçik və orta biznes kreditlərini bir çox halda əmlakın alınması və ya təmiri üçün verilən kredit kimi rəsmiləşdirir:** "Səbəbləri müxtəlifdir. Əsas odur ki, həmin kiçik və orta sahibkarlar da aldıqları kreditlərin etibarsız olduğunu tələb edə bilər.

Bir sözlə, xarici valyutada olan bütün kreditlərin etibarsızlığını Konstitusiya Məhkəməsi əsassız olaraq tanımasa da, ən azı burada sözügedən kreditlər istənilən halda etibarsızdır. Buna görə də vətəndaşlarımız haqlarını tələb etməlidir".

❑ RÖYA

# Müstəqil mediaya qarşı reklam ayrı-seçkiliyi davam edir

## Oxunmayan hökumət mediası reklam dənizində üzür, müstəqil qəzetlər və saytlar isə...



**Azərbaycanda müstəqil medianın əbədi və əzəli problemlərindən biri olan reklam məsələsi həllini tapmır. Ağır maddi durumu olan çap mediasının həyatında bu, özünü hər gün daha qabarıq formada göstərir. İqtidar mediası, hakimiyyətə yaxınlığı ilə seçilən saytlar, qəzetlər reklam "yağışı"nda üzərkən tirajı, oxunma sayı, populyarlığı ilə ictimaiyyətin nəbzini tutan müstəqil media orqanlarına reklam yasağı var.**

Müstəqil medianın reklam problemi özünü daha çox bayram günlərində göstərir. Adi günlərdə səhifələrində məqalədən daha çox reklamlar yer alan hökumət mediasında bayramlarda da reklam əlindən "tərpənmək olmur". 28 May Respublika Günü ilə bağlı qəzetlər arasında kiçicik bir reyd keçirmək kifayətdir ki, mənzərəni bütün dəhşəti ilə görəsən.

İri şirkətlər, dövlət qurumları, biznes strukturları sanki bəhs-bəhsə girərək Azərbaycan xalqını bayram münasibətilə təbrik edirlər. Həm də müstəqil mətbuatı bu prosesdən kənarda qoyaraq. Əslindəsə bu seçim heç bir idarəçi məntiqinə sığmır. Neyçün ki, dünyanın heç bir yerində müəssisə rəhbəri oxunmayan, aşağı tirajlı mətbu orqana reklam verməyə risk etməz, bu, iş dünyası üçün olduqca sərištəsiz addım sayıla bilər.

Mənzərəyə faktlardan çıxış edərək diqqət yetirək. Hökumət qəzetlərində bir bayramla bağlı ən azı 13-14 şirkətin təbriki yer alır. Hələ biz digər profilli reklamları hesaba qatmırıq. Halbuki seçimin ədalətli aparılması üçün müstəqil mediaya da bu reklam və elanlardan müəyyən pay düşməlidi.

Reklam bazarı ilə bağlı problem dəfələrlə media ekspertləri, qəzet rəhbərləri, hətta hakimiyyət təmsilçiləri ilə müzakirə olunub. Səslənən təkliflər arasında mətbuat və elan qurumunun yaradılması da vardı. Ancaq heç bir təklif indiyədək hakimiyyət tərəfindən nəzərə alınmayıb. Ekspertlər səbəb kimi hakimiyyətin buna istəyinin olmaması kimi fikirlər səsləndirirlər. Onların sözlərinə görə, iqtidarın müxalifət mediasının inkişafında maraqlı olmaması reklam ayrı-seçkiliyində özünü qabarıq şəkildə göstərir. Məqsəd müxalif mətbuatın maddi bazasının zəiflədilməsi və sıradan çıxarılmasıdır. Ölkədəki iri şirkətlər, banklar və firmalar isə müxalifət qəzetlərinə hakimiyyətin icazəsi olmadan reklam verməyə qorxur.

Xatırladaq ki, problemin həlli üçün daha öncə bir neçə dəfə məsələ qaldırılıb. Hətta müəyyən təkliflər də səsləndirilib. Məsələn, Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov mətbuat vasitəsilə reklamçılara, iri şirkət və holdinqlərə müraciətlə mətbuata reklam verilməsindən söz açmışdı. O, şirkətləri mətbuata reklam verməyə səsləyərək bildirmişdi ki, bundan qorxmaq lazım deyil. Ancaq vaxtaşırı səslənən fikirlər mediadakı reklamın bölgüsünə müsbət təsir etmir. Əksinə, vaxt ötdükcə müxalifət qəzetlərinə reklam verilməsi tamamilə dayandırılıb.

❑ Sevinc TELMANQIZI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015



# “Təmas xəttində qüvvələr nisbəti tam xeyrimizə dəyişib”

## Zahid Oruc: “Dövriyyəyə çoxlu yalan təhlillər və saxta kəşfiyyat məlumatları çıxarılır”

**“Şərq Tərəfdaşlığı”na üzv ölkələrin Riqa sammitindən dərhal sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Moskvaya getdi. Məlumatlar və qısa açıqlamalar onu təsdiqləyir ki, Qarabağ mövzusu danışıqların əsas mövzusu olub. Üstəlik, Rusiyanın Ermənistanın işğalçı ordusunu Azərbaycan torpaqlarından çıxartmağa hazırlaşdığı barədə xəbərlər yayıldı. Əslində nə baş verir? Bütün bunlarla bağlı deputat, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Orucla danışdıq. İlk suala deputatın cavabı:**

- Burada təsadüfi heç nə yoxdur. Azərbaycan tərəfi Riqa zirvəsinin yekun qətnaməsini xüsusi şərtlə imzalamaqla sübut etdi ki, geosiyasi seçimini edərkən Qarabağ məsələsini əsas götürəcək. Ona görə də Kremldəki danışıqlarda diplomatlarımızın mühüm üstünlüyünü təkcə hərbi və ya iqtisadi imkanlara deyil, həm də ölkəmizin seçiminin region dövlətləri üçün nə qədər həyati əhəmiyyətə malik olması ilə izah etmək lazmdır. Yəni Qarabağ məsələsi bizi hazırda arzuolunmaz beynəlxalq tələblərdən və ya quruluşlardan qoruyur. Nə qədər qəribə səslənsə də, həqiqət bundan ibarətdir. Gördünüz ki, Lavrov ilk dəfəydi münaqişənin həll olunmamasına münasibətdə təkcə Azərbaycanın maraqları baxımından deyil, elə bölgəni ələ keçirmək təşəbbüslərinin gücləndirdiyi üçün rusların da mənafelərinə zərbə vurması gerçəkliyindən çıxış edirdi. Ona görə Moskva danışıqları gələcək yeni Qarabağ planının başlanğıcı ola bilər.

***- Azərbaycanın Gömrük İttifaqına qoşulmasının qarşılığında Rusiyanın bir neçə rayonumuzun azad olunması üçün Ermənistana təzyiq göstərdiyi haqda məlumatlara inanırsınızmı? Ümumən Azərbaycan belə bir razılaşmaya gedə bilərmi?***

- Görünür, Nikolay Patruşevin regiona səfəri zamanı münaqişənin mərhələli həlli barəsində detallar müzakirə olunub. Yəni bu ranqda şəxsin sırf təhlükəsizlik problemlərini çözmək üçün Bakıya gəldiyini düşünmək sadəlövhlük olardı. Hər halda, təmas xəttində kiçicik bir yerdəyişmə çoxlu hərbi və siyasi toqquşmalara yol aça bilər. Ona görə qeyd etdiyiniz bir neçə rayon məsələsinin hansı şərtlər müqabilində irəli sürülməsindən asılı olmayaraq, onu gerçəkləşdirmək ən azı üç qüvvənin müqavimətindən keçməlidir: birincisi, Qərbsiz sülh planı o deməkdir ki, Gürcüstanda getdikcə daha çox möhkəmlənməyə çalışan NATO dövlətləri gərək öz siyastlərinə yenidən baxsınlar və Cənubi Qafqazdan birdəfəlik getmək haqqında düşünsünlər. Çünki Azərbaycan Rusiya ilə razılaşsa, ölkəmizin balanslı kursu dəyişəcək və Avropa dövlətlərinin maraqları bundan ziyan çəkəcək. On illər ərzində burada qurulmuş transmilli layihələri əldən verməmək üçün hakimiyyətə qarşı, o cümlədən sabitlik əleyhinə hansı təxribatların işə düşəcəyini isə proqnozlaşdırmaq çox da çətin deyil. Ermənistanın 1999-cu ildə parlament güllələnmənını bu dəfə Azərbaycanda təkraralayacaqlar. Çünki bir neçə rayonun qaytarılması Ermənistanla münasibətlərin yeni mərhələsi deməkdir. Ona görə dünənə qədər düşmənçilikdən qazananların meydanı daralanda onlar bunu cavabsız qoymayacaqlar.

İkinci önəmli qüvvə erməni millətçilərinin güzəştsiz xətt tərəfdarlarını ram etmək məsələsidir. Qarabağın həllini beynəlxalq erməni lobbi birlikləri və onların müştərək çalışdığı mərkəzlərlə də gərək razılşdırasan. Biz indiki reallıqdan danışırıq. Ancaq tutalım sabah Sərkisyan hakimiyyətdən getdi. O zaman keçmiş hərbi quzğunların istənilən sülh razılaşmasını pozmaq üçün cəmiyyətdə qarışıqlıq salmayacağına zəmanət yoxdur. Ona görə də Qarabağ məsələsi Ermənistanda istənilən platformalı qüvvə üçün ölüm-qalım sualıdır. Moskva birinci Qarabağ müharibəsində qan töküb torpaq ələ keçirmiş millətçi ermənilərə həmin ərazilərdən bir hissəsinin geri qaytarılması müqabilində nəyi verəcəyini ortaya qoymalıdır. Ya biz neft və qaz layihələri ilə İrəvanın iddialarını neytrallaşdırmalıyıq, ya da Qarabağ üçün xüsusi status öhdəliyini qarşımıza qoyacaqlar.

Halbuki ərazilərin qismən qaytarılması həqiqətən münaqişənin nizamlanması üçün tamam yeni perspektivlər açır. İndi hər iki xalqın rəsmi və ya sıravi tərəfləri yalnız düşmənçiliyi stimullaşdırırlar. Hər halda, başqa vasitə ilə iqtidarda qala bilməzsən. Ancaq cəmiyyəti qeyri-populyar qərarlara hazırlamaq üçün vaxt lazımdır. Rusiya 4 rayon üzərindən Azərbaycanın siyasi müstəqilliyi əleyhinə sənədlərə qol çəkəcəyinə, əlbəttə, inanmır. O cümlədən keçmiş neft müqavilələrini və yeni qaz razılaşmalarını təxirə salmağı heç bir halda qəbul etməyəcək rəsmi Bakı üçün yalnız ərazi bütövlüyünə real təminat və təcili tədbirlər hansısa fərqli situasiyanı meydana çıxara bilərdi. Ona görə də Moskvada təkcə Qarabağa deyil, regiona bütöv baxırlar. İki xalqın düşmənçiliyinə son qoyulsa, Qafqaz kimin olacaq - əsas sual budur.

Üçüncüsü, Putin böyük büdcə itkiləri fonunda xalqın vəziyyətinin xeyli pisləşdiyini yaxşı bilir. Bununla bərabər, ona müxalif olan qüvvələrin də xeyli tərəfdarları mövcuddur. Orada ruslardan başqa millətləri yedizdirməsini dayandırmaq xəyallarında olanlarla yanaşı, faşist təmayüllü və neoimperialist düşüncələrdə olanlar da təsirli bir çəkiyə malikdir. Belə olan təqdirdə, Rusiya Qarabağ münaqişəsi hesabına yaxın 2 ildə 5 milyard dollarlıq silah və texnikanı sata bilirsə, ona münaqişəni həll etmək niyə lazımdır? Axı o, ətrafını necə inandıra bilər ki, torpaq bütünlüyü tam və qismən təmin olunmuş Azərbaycan günün birində yenidən Qərb orbitinə dönmək haqqında düşünməyəcək?

Gördüyünüz kimi, mən burada ölkəmizin daxili qüvvələrinə və maksimalist iddialarla yaşayan dairələrinə məqsədli şəkildə toxunmadım. Sadəcə, Elmar Məmmədyarovun yaxın keçmişdə dediyi fikri xatırlamağımız yerinə düşər. Baş diplomatımız işaldan azad olunacaq yerlərdə bir daha silahlı əməliyyatlara yol verməmək üçün dəmir yolları daxil, çoxlu sülh möhkəmləndirici iqtisadi və kommunakativ tədbirlər planının hamıya təqdim olunduğunu söyləmişdi. Aydın məsələdir ki, əksər təminatlar yalnız Moskvaya verilmiş, bütünlükdə sülh planının bütün mərhələlərində rusların birbaşa nəzarəti nəzərə alınmışdı. Lakin hətta bu variantlar da keçməyib.

***- Ermənistan hazırkı dönəmdə hətta Dağlıq Qarabağdan kənarda - Qubadlıda süni məskunlaşmanı davam etdirirsə, bu əraziləri boşaldacağına nə dərəcədə inanmaq olar? Bəlkə bütün bunlar Azərbaycanı Rusiyanın caynağına keçirmək üçün bir plandır ki, saxta məlumatlar dövriyyəyə buraxılıb?***

- Bəli, həqiqətən dövriyyəyə çoxlu yalan təhlilllər və saxta kəşfiyyat məlumatları çıxarılır. Xüsusilə də ölkəmizdəki səfirlər Azərbaycanın informasiya məkanını nəzarətdə saxlayır və onu idarə etməyə çalışırlar. Casuslar media şəbəkələrində həmişə çoxluğu təşkil edir. Baxın, hər il 90 mindən çox erməninin doğulduğu torpağı tərk etməsi xəbərləri fonunda Qubadlıda süni məskunlaşma planları nə qədər real görünə bilər? Düzdür, həmin zonalar boyunca təmas xəttində birbaşa gündəlik atışma imkanları Füzuli və ya Ağdam bölgləri ilə müqayisə oluna bilməz. Amma ermənilərin insan potensialı Qarabağı doldurmağa yetmədiyi halda onların ön cəbhədə sakit və əmin-amanlıq içərisində yaşamağa can atması fiktiv bir versiyadır. İndi siz özünüz qiymətləndirin. Burada Azərbaycana təzyiq etmək, düşmənin maksimalist iddiaları fonunda ölkəmizi xarici siyasətini Brüssel və ya Moskvanın xeyrinə dəyişmək niyyəti güddüyünü özünüz aydın görə bilərsiniz.

Halbuki erməni anaları öz siyasi və hərbi rəhbərlərinə Qarabağ üçün yeni oğullar, əsgərlər vermirlər. Orada demoqrafik ölümün səngərdəki itkilərdən qat-qat çox olduğunu nəzərə alsaq, Qubadlının tamamilə boş bir əraziyə çevrildiyinə inana bilərik. Mən hələ kəşfiyyat məlumatlarını demirəm.

***- Azərbaycan ordusu döyüşə hazırlıqla bağlı ciddi təlimlər keçirir. Bunun səbəbi nədir? Ola bilərmi ki, Azərbaycan ordusunun qəfil hərbi əməliyyatlar keçirməsinə həm də Rusiyanın razılığı var? Bu barədə yayılan məlumatları necə şərh edə bilərsiniz?***

- Təmas xəttində qüvvələr nisbəti və hərbi balans tam bizim xeyrimizə dəyişib. Müasir raket qurğuları, gecə və gündüz bütün hərbi dislokasiyaların yerləşdiyi periferiyanı tam müşahidə altında saxlayan qurğular və ən əsası fərqli təlim və bacarıqlara yiyələnmiş qabaqcıl zabit-əsgər heyəti həqiqətən danışıqlarda Azərbaycanın mövqeyini gücləndirir. Bununla bərabər, sizin dediyiniz kimi, əgər Moskva erməni diaspora və millətçi kütləsindən zərbə almamaq üçün dediyiniz razılaşdırılmış hərbi əməliyyatlar ssenarisini cızarsa, onda gərək ən azı Qarabağda hərbi hissə komandirlərinin heç olmasa yarası Rusiya tərəfindən təyin edilsin. Ermənlərin əsas hərbi dayağının Rusiya olduğunu hamı bilsə də, Şuşaya bir neçə rus generalının indi gətirilməsini sadə xalqa və hərbçilərə başa salmaq, onun zərurətini izah etmək o qədər də asan olmayacaq.



**“Rusiya Qarabağ münaqişəsi hesabına iki ildə 5 milyard dollarlıq silah və texnikanı sata bilirsə, münaqişəni həll etmək onun nəyinə lazımdır?”**

***- Necə bilirsiniz, Qarabağla bağlı Rusiyanın dominantlıq etdiyi proseslərdə - əgər bu proses həqiqətən də gedirsə - Qərb də yer alırmı? Yoxsa bu proses bir konfrantasiya obyektinə çevriləcək və hansısa razılaşma olsa belə, sonda pozulacaq?***

- Azərbaycan qeyd etdiyiniz dairələr arasında konfliktdən daha çox faydalanır, nəinki əksinə. Bununla Ukraynadakı müharibənin davam etməsinə arzumuzu ifadə etmirik, sadəcə, dediyiniz konfrantasiya zonası bizdən nə qədər uzaq olsa, bir o qədər yaxşıdır. Digər tərəfdən, keçmiş SSRİ məkanında geopolitik səhnədə qüvvələr nisbəti xeyli dəyişib. Rusiyanın iqtisadi problemlərinə adekvat qaydada onun hərbi teatrdan getməsi baş verməyib, əksinə, çəkisi ağırlaşıb. Sonuncu bir faktı bura əlavə edək-Xəzərdəki birgə hərbi təlimlər, nəzərdə tuturam.

Lakin yeganə mühüm razılaşma Türkiyənin rolunun tanınmasıdır və Moskva indiki məlum böhran şəraitində Ankaranın Cənubi Qafqaz planlarına, Azərbaycanla birgə hərbi yaxınlaşmaya, hətta vahid silahlı birləşmələr modelinə 20 il əvvəlki kimi aqressiya ilə cavab vermir.

Ona görə də Azərbaycan prosesinin passiv seyrçisi deyil, əksinə, indi bir çoxları rəsmi Bakının qərarının nədən ibarət olacağını səbirsizliklə gözləyirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015

# Sənətçilərdən kim müxalif partiyanın üzvüdür?

**Şou biznes, incəsənət insanlarına siyasətdən, ictimai həyatdan sual verdikdə ən çox eşitdiyimiz cavab bu olur: "Biz sənətçilər siyasətə qarışmırıq". Lakin araşdıranda məlum olur ki, bir çox məşhur incəsənət nümayəndələri siyasi partiyanın üzvüdürlər.**



Bəs görəsən sənətçilərdən kim müxalif partiyanın üzvüdür?

"Yeni Müsavat"a daxil olan məlumata görə, tanınan müğənni Manaf Ağayev millət vəkili İqbal Ağazadənin sədri olduğu Ümid Partiyasının üzvüdür. Məlumatı dəqiqləşdirmək üçün müğənniyə müraciət etdik. Müğənni "Yeni Müsavat"ın əməkdaşına verdiyi açıqlamada yayılan xəbəri təkzib edib: "Bu, tamamilə səhv məlumatdır. Çünki bu günəcən heç bir siyasi partiyanın üzvü olmamışam, nə iqtidar, nə də müxalifət".

**Müğənni Əli Mirəliyev** isə əməkdaşımıza verdiyi açıqlamada bildirmişdi ki, uzun illər bundan öncə Müsavat Partiyasının üzvü olub, lakin partiyadaxili çəkişmələr səbəbindən üzvlükdən imtina edib.

**Xalq artisti Flora Kərimova da nə vaxtsa müsavatçı olduğunu deyib:**

"Doğrudur, nə vaxtsa bu partiyanın üzvü olmuşam. Lakin hazırda bu cür suallara cavab verməк istəməzdim".

**Əməkdar artist Nüşabə Ələsgərli də üzvü olduğu partiyanı açıqlayıb:**

"Artıq 5 ildir ki, Yeni Azərbaycan Partiyasının (YAP) üzvüyəm".

Nadir Qafarzadə və Elza Seyidcahan da əməkdaşımıza uzun illərdir ki, YAP-ın üzvü olduğunu bildirdilər.

"Yeni Müsavat"ın əməkdaşının apardığı kiçik araşdırmadan məlum olub ki, digər sənətçilər, o cümlədən xalq artisti İlhamə Quliyeva, Ağadadaş Ağayev, Zülfiyyə Xanbabayeva, əməkdar artistlər Tünzalə Ağayeva, Gülyanaq və Gülyaz Məmmədova bacıları, Rəşad İlyasov, İlqar Muradov, Səfurə Əlizadə, Aysel Teymurzadə, Sevda Yəhyəyeva, Natəvan Həbibi, Lalə Məmmədova, Cavanşir Məmmədov Yeni Azərbaycan Partiyasına (YAP) üzvdürlər.

Burdan belə məlum olur ki, tanınmış sənətçilərdən müxalif partiyalarda təmsil olunanı yoxdur.

❑ **Xalidə GƏRAY**

## "Avropa Oyunları zolağı" şəhəri iflic etdi



**Martın 29-da səhər saat 08:00-dan başlayaraq paytaxtda qadağan olunmuş xətt üzrə hərəkət edən avtomobillərin qeydiyyatına başlanılıb. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin mətbuat xidmətinin rəhbəri Vaqif Əsədovun ANS PRESS-ə verdiyi məlumata görə, bu saatlara qədər qayda pozan 500-dən çox sürücü barəsində protokol hazırlanıb.**

Onun sözlərinə görə, qeydə alınan qayda pozuntuları sənədləşdirilir və sürücülərin ünvanlarına göndərilir. Sənədləri aldıqdan sonra sürücülər geci 5 gün ərzində cərimələri ödəməlidirlər.

"Qoyulan qanunlara əməl olunmalıdır. Bu zarafat deyil. Bütün sürücülər həm öz mədəniyyətlərini, həm də paytaxta gələn turistlərə Azərbaycanda yol hərəkəti mədəniyyətini nümayiş etdirəcəklər. Buna görə də sürücülər həm artıq xərcə düşməmək, həm də yüksək mədəniyyət nümayiş etdirmək üçün qanuna əməl etməlidirlər".

Nəzərə çatdıraq ki, "Oyunlar zolağına" girişin məhdudlaşdırılması dünən paytaxtda hərəkəti tam iflic edib. Şəhərin demək olar hər yerində saatlarla davam edən tıxaclar hökm sürüb. Ekspertlər hesab edir ki, bunun yeganə səbəbi yollarda Avropa zolağını ayırmaqdır: "Başqa maşınları ora buraxmamaq tam yanlış texnologiyadır. Bu yanlışlıq Avropa Oyunları zamanı ciddi problemlər yaradacaq. Çünki bir qayda olaraq hərəkəti əsasən sol zolaq tənzimləyir, ora da girişi yasaqlamaq günün istənilən saatında tıxac deməkdir. Tıxacda isə insanlar tab gətirməyəcək, kütləvi şəkildə Avropa zolağına doluşacaqlar. Əgər o zolaqda hərəkətə qoyulan qadağa aradan qaldırılmasa, anormal situasiya hökm sürəcək. Sadəcə, oyunlar zamanı işlək olacaq yollarda YPX əməkdaşları xidmətə daha çox cəlb edilməlidirlər".

## KXCP üzvünü öldürənlərə üst-üstə 232 il cəza tələb olundu

**Bakı Ağır Cinayətlər Məhkəməsində Salyanda KXCP üzvünü öldürməkdə təqsirləndirilən 18 nəfərə cəza istənilib. "Qafqazinfo"nun prosesdə iştirak edən əməkdaşının verdiyi xəbərə görə, hakim Eynulla Vəliyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı təqsirləndirilən şəxslər üçün cəza istəyib. Prokuror Oqtay Zəkiyevin 16 il 6 ay, Xəzər Əhmədovun 15 il, Rauf Rəhimovun 15 il, Şahin Niftiyevin 15 il, Tacəddin Qafarovun 15 il, Təvəkkül Seyidovun 15 il, Rəşad Ağayevin 15 il, İbrahim Miriyevin 14 il, Kənan Qasımlının 14 il, Pərviz Hüseynovun 14 il, Kənan Alıyevin 14 il, Azad Cəbayılovun 14 il, Rauf Mahmudovun 14 il, Rafael Əliyevin 13 il, Tural Cavadzadənin 13 il, Kamil Salayevin 8 il, Elməddin Quliyevin 8 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.**

Qeyd edək ki, 2014-cü il martın 4-də Salyan rayonunun Qaraçala kəndindən keçən avtomobil yolunun kənarında kənd sakini Aydın Xəlilovun üzərində çoxsaylı xəsarətləri olan meyiti aşkar edilib. Həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində qətlin sifarişçisinin rayon sakini Şahin Niftiyev olması müəyyən olunub. İstintaq araşdırmaları zamanı məlum olub ki, o, qardaşı Azər Niftiyevin 2007-ci ildə Rusiya Federasiyasının Ufa şəhərində həmyerlisi Aydın Xəlilov tərəfindən qətlə yetirilməsi barədə məlumat əldə etdikdən sonra qisas almaq qərarına gəlib. Bu məqsədlə Ş.Niftiyev qohumu Rauf Rəhimova 10.000 manat müqabilində A.Xəlilovun öldürülməsini təklif edib və əvvəlcədən 5.100 manat ödəyib. R.Rəhimov bu sifarişi icra etmək üçün tanışları Oktay Zəkiyev, Təvəkkül Seyidov və Tacəddin Qafarovdan ibarət mütəşəkkil dəstə yaradaraq Yasamal rayonu ərazisindəki mağazalardan birindən 3 ədəd bıçaq alıb, nəqliyyat vasitələrinin icarəsi ilə məşğul olan firmadan isə "Mitsubishi-Pajero" markalı avtomobil kirayələyib.

Daha sonra R.Rəhimov, T.Qafarov və T.Seyidov həmin avtomobillə Salyan rayonunun Qaraçala kəndinə gələrək özlərini A.Xəlilova polis əməkdaşları kimi təqdim edib və onu avtomobilə əyləşdirərək aparıblar. Təqribən 600-700 metr aralandıqdan sonra üzərlərində olan bıçaqlarla A.Xəlilova 34 zərbə vuraraq onu xüsusi amansızlıqla qətlə yetirib, meyitini isə yolun kənarına atıblar. İstintaq zamanı onların Elmira Məmmədova adlı qadının evinə basqın etmələri, ona və qızı Xədicəyə zor tətbiq etməklə onlara məxsus 16 min manat pulu ələ keçirmələri də məlum olub.

## Şərti azadlığa buraxıldı, qadını soydu...

**Bakıda quldurluq və oğurluq cinayətləri törədən şəxs saxlanılıb. "Report" xəbər verir ki, Nizami Rayon Polis İdarəsi əməkdaşlarının keçirdiyi əməliyyat zamanı 1976-cı il təvəllüdlü Əziz Adil oğlu Qəhrəmanov tutulub.**

Ə.Qəhrəmanov Nizami rayonunda, metronun "Koroğlu" stansiyasının yaxınlığındakı meşəlik sahədə bir qadına qarşı zor tətbiq edərək onun iki ədəd qızıl üzük və boyunbağısını ələ keçirməkdə şübhəli bilinir.

Araşdırma zamanı Ə.Qəhrəmanovun Xətai rayonunda da analoji cinayətə əl atdığı məlum olub. Faktla bağlı saxlanılan şəxs barəsində cinayət işi başlanılıb, istintaq davam edir.

Qeyd edək ki, Ə.Qəhrəmanov indiyə qədər müxtəlif cinayətlər etdiyi üçün ömrünün 11 ilini həbsxanalarda keçirib. O, sonuncu dəfə 2012-ci ildə soyğunçuluq etdiyinə görə məhkum edilib.

Həmin vaxt Ə.Qəhrəmanov azadlıqdan məhrum edilərək həbsxanaya göndərilib. Cəzasının müəyyən hissəsini çəkəndən sonra isə Ə.Qəhrəmanov bu ilin fevral ayında məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülüb və şərti azadlığa buraxılıb. Ə.Qəhrəmanov sonuncu cinayətlərini məhz cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkən zaman həyata keçirib.




## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağrılaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Dübəndidə Baglar massivində 10 sot torpaq sahəsi. Dəniz sahilindədir ,bütün sənədləri qaydasındadar.**

**Torpaq sahibi özü satır. 055-215-00-57**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 116 (6144) 30 may 2015



Rövşən Lənkəranski



Ded Xasan

# "Lənkəranski" "Ded"in qətlindən suçsuz çıxdı...

## İstintaq sübuta yetirə bilməsə də, "qanuni oğru"ların "sxodka"sı bir çox qaranlıq məsələlərə, o cümlədən "Ded Xasan"ın qətli ilə bağlı müəmmaya da aydınlıq gətirəcək

**Rusiya İstintaq Komitəsinin Moskva üzrə Baş İstintaq İdarəsi məşhur kriminal avtoritet, "Ded Xasan" ləqəbli Aslan Usoyanın qətlinə dair qaldırılmış cinayət işini bağlayıb. "İnterfaks"ın xəbərinə görə, müstəntiqlər iki ildən çox araşdırma aparsalar da, bu qətl üzrə konkret ittiham irəli sürmək üçün dəlil-sübut tapa bilməyiblər. Hadisə yerindən tapılan gilizlərin laboratoriya araşdırması göstərib ki, bu gilizlər 9 növ silaha aid ola bilər. "Ded Xasan"ın öldürüldüyü "Val" adlandırılan xüsusi avtomatda əl izləri isə o qədər cüzi olub ki, genetik ekspertiza nəticələri tam dəqiqliklə verə bilməyib.**

"Ded Xasan"ın qətli üzrə əsas şübhəli olan 12 aprel 1981-ci ildə anadan olmuş Ülfət Tağıyev ("Rüfət Gəncinski") digər cinayət üçün cəzasını ciddi rejimli koloniyada çəkməklə 8 il azadlıqdan məhrum edilib. 2013-cü ilin sentyabrında DİN və FTX İdarəsinin əməkdaşları onu Moskvada saxlayıblar. O, paytaxta Türkiyə vətəndaşının pasportu ilə, saxta sənədlərlə gəlib. Əməliyyatçıların məlumatına əsasən o, azərbaycanlı "qanuni oğru" Rövşən Canıyevin ("Rövşən Lənkəranski") yaxın ətrafına daxildir və 2012-ci ildə Dubayda "qanuni oğru" adı alıb. "Rufo"nu dəfələrlə Ded Xasanın qətlinə görə də dindiriblər. Lakin o, kriminal "generalın" qətlində hər hansı rolunun olduğunu inkar edib. İstintaqın əlindəki ən önəmli sübut "Ded Xasan"ın qətlə yetirildiyi "Köhnə fayton" restoranının yaxınlığındakı videomüşahidə kameralarının görüntüləri idi. "Rufo" kameralara ilk dəfə 2013-cü il yanvarın 9-da, "Ded Xasan"ın qətlindən bir həftə əvvəl düşüb. O, restoranın ətrafında fırlanıb, ətraf həyətləri dolaşıb, onu müşayiət edən şəxslərlə nə barədəsə danışıb. Sonra Tağıyev daha iki dəfə "Köhnə fayton"un yaxınlığında görünüb. Həmçinin "Rufo" yanvarın 16-da- qətlin baş verdiyi gün də restorana yaxın küçədə qeydə alınıb. Amma göründüyü kimi, istintaq azərbaycanlı "qanuni oğru"nun bu işdə suçlu olduğunu sübut edə bilməyib.

Rusiya kriminal aləminin ən nüfuzlu nümayəndələrindən biri olan "Şakro Molodoy" ləqəbli 62 yaşlı Zaxari Kalaşov ötən il oktyabrın 29-da İspaniya həbsxanasından azadlığa buraxılandan sonra "Ded Xasan"ın və Vyaçeslav İvankovun ("Yaponçik") məzarlarını ziyarət edib. "Şakro" məzarlıqda and içib ki, onların qatillərini bağışlamayacaq. Rusiya saytları yazır ki, "Ded Xasan"ın qətlinin günahkarı kimi konkret ad çəkilməsə də, əsas şübhəlilər hazırda həbsdə olan "Taro" ləqəbli Tariel Oniani və "Merab Suximski" kimi tanınan Merab Canqveladzedir. "Ded Xasan" klanının "qara siyahı"sında "oğru dünyası"nın əsas simalarından olan "Rövşən Lənkəranski"nin də adı da var. Məhz bu baxımdan "Rufo"nun istintaqının son nəticəsi maraqla gözlənilirdi. Amma görünür ki, bu qətli rəsmi olaraq "Lənkəranski"nin "hesabına" yazmaq mümkün olmadı. Yeri gəlmişkən, "Ded Xasan"ın aradan götürülməsində Rusiya hüquq-mühafizə orqanlarının əli ola biləcəyi ilə bağlı versiyalar da var.

Rusiya paytaxtında bütün "qanuni oğru"ların iştirakı ilə toplantı keçiriləcəyi ilə bağlı xəbərlər yayılsa da, belə bir "sxodka" hələ ki baş tutmayıb. Ehtimal edilir ki, "Şakro Molodoy"un təşkilatçısı olduğu bu "sxodka" bir çox qaranlıq məsələlərə, o cümlədən "Ded Xasan"ın qətli ilə bağlı da müəmmaya aydınlıq gətirəcək.

"Rövşən Lənkəranski"nin hazırda harada olduğu bilinmir. O, mütəşəkkil cinayətkarlıq, qəsb, rüşvətxorluq, çirkli pulların yuyulması və rəsmi sənədləri saxtalaşdırmaqda təqsirli bilinir. Onun həbsi barədə İtaliya məhkəməsi xüsusi qərar çıxarıb və saxlanılması üçün İnterpola müraciət edilib.

❑ Xəbər xidməti





# Bank rəhbəri 2 vəkili məhkəməyə verdi

## Ceyhun Yusifov Mərkəzi Bank rəsmilərini "Gəncəbank" ASC-də yoxlama aparmağa çağırıb

**"Gəncəbank" ASC-nin sədri Pərvanə Novruzova onunla konflikti olan Natalya Kərimovanın vəkillərini məhkəməyə verib. N.Kərimovanın vəkili Ceyhun Yusifov "Yeni Müsavat"a açıqlamasında deyib ki, bank sədrinin bu addımı onu və digər vəkil Əziz Qənbərovu Natalya Kərimovanın müdafiəsindən çəkindirmək məqsədi daşıyır.**

"Pərvanə Novruzova mənə və digər vəkil Əziz Qənbərova qarşı Kəlbəcər Rayon Məhkəməsində iddia qaldırıb. Natalya Kərimovanın əmlaklarını ələ keçirmələri azmış kimi, hələ 100 min manat da bizdən istəyərək "şərəf və ləyaqətin müdafiəsinə" başlayıb. Bizim göstərdiyimiz xüsusatlar Natalya Kərimovanın bir çox orqanlara etdiyi çoxsaylı şikayətlərə istinad edir. Bundan başqa, Natalya Kərimova da bu gün həmin halları təsdiq edir. Təəssüf ki, Pərvanə Novruzovanın əməllərinə vaxtında hüquq-mühafizə orqanları tərəfindən düzgün hüquqi qiymət verilməyib. Bu gün isə törətdiyi çoxsaylı əməlləri ifşa edildiyindən elə zənn edir ki, vəkilləri məhkəməyə verməklə onları peşə fəaliyyətindən çəkindirə biləcək. Bu yanaşma tam absurd və yanlışdır. Yəqin ki, sonrakı fəaliyyətimizlə bu halı tam şəkildə təsdiq edəcəyik".

**Vəkil deyib ki, P.Novruzovanın məhkəməyə müraciət etmək hüququ var:** "Amma onun biz vəkilləri məhkəməyə verməsinin hüquqi əsası yoxdur, bu addımını sabun köpüyünə bənzədirəm. Hesab edirəm ki, vəkilləri məhkəməyə verməkdənsə, məhkumluğunun niyə yarandığına, barəsində cinayət təqibinin niyə başlanmasına aydınlıq gətirsə daha adekvat olar. Kimsəsiz Natalya Kərimovanı işgəncəyə məruz qoyması, külli miqdarda dəyəri olan əmlaklarını zorla ələ keçirməsi də onun avtobioqrafiyasındadır. Biz geri çəkilməyəcəyik, daha da qətiyyətli və əzmkar olacağıq".

**Vəkil qeyd edib ki, "Gəncəbank" ASC tərəfindən hüquqları pozulmuş onlarla şəxs onlara müraciət edir:** "Həmin şəxslər də birmənalı şəkildə Pərvanə Novruzovanın qanunsuz hərəkətlərindən bəhs edirlər. Belə olan təqdirdə bir çox təkzibedilməz faktları geniş ictimaiyyətə və hüquq-mühafizə orqanlarına açıqlamaq məcburiyyətində qalacağıq. Yəqin həmin şəxslərlə bağlı açıqlamadan sonra "şərəf və ləyaqətin müdafiəsinə" yenidən başlayacaq. Acınacaqlı məqamlardan biri də ondan ibarətdir ki, "Gəncəbank" kimi bankların fəaliyyətinə Mərkəzi Bank və digər qurumlar göz yumur".

**Vəkil Mərkəzi Bank rəsmilərini "Gəncəbank" ASC-də yoxlama aparmağa çağırıb:** "Onların mövcud fəaliyyəti təftiş aparmaqla müdaxilə etmələridirlər. Belə olan təqdirdə yəqin ki, "Gəncəbank" ASC fəaliyyətinin nədən ibarət olduğunu tam şəkildə dərk edə və vəkillərə qarşı edilən təhdidlərin yolverilməzliyini dərk edər".

❑ E.MƏMMƏDƏLİYEV

# Bakıda baş vermiş qəza ilə bağlı şok iddia

## Aydın Qırxlarov: "Məni maşını ilə vuranı yox, başqasını tutublar"

**Aydın Qırxlarov 2014-cü ilin aprel ayının 22-də, Yasamal rayonu ərazisində öz şəxsi avtomobili ilə hərəkətdə olan zaman arxadan yüksək sürətlə hərəkət edən "Prado" markalı 10- NH-900 dövlət nömrə nişanlı avtomobil onu vurub. Hadisə zamanı A.Qırxlarovun yanında bacısı da olub. Qəza nəticəsində A.Qırxlarovla yanaşı, onun avtomobildə olan bacısı da ağır xəsarət alıb. Onun hər iki ayağı sınıb. A.Qırxlarov isə 2 aya yaxın müddət ərzində komada olub.**



A.Qırxlarov uzun müddət xəstəxanada müalicə aldıqdan sonra ikinci bir şokla qarşılaşıb. Çünki onun başına bu hadisəni gətirən şəxs kənarda qalıb, başqa bir şəxs həbs edilib.

Daha ətraflı öz danışır:

**A.Qırxlarov deyir ki, məhkəməyə bir başqası gətirilib. Digər birisi isə həbs edilib:** "Qəza zamanı maşında olan şəxs polis əməkdaşı idi. Polis kapitanı rütbəsində idi. Mən maşınında polis formasını gördüm. Onu da qeyd edim ki, mən özüm də polis əməkdaşı olmuşam. Hadisədən sonra məni yararsız kimi işdən çıxardılar. Mən həmin vaxt komaya düşdüm və 1 ay 26 gün komada qaldım. Vəziyyətimdən istifadə edib, cinayətin izini itirmək üçün onun adı gizlədildi. Guya ki, onun yerinə maşında başqası olub. Məhkəməyə onun qohumu olan Şamilov Əzəddin Nurəddin oğlunu gətirdilər. O, əvvəlcə ifadəsində bildirdi ki, "Mən bu hadisəni törətmişəm". Sonralar o da ifadəsini dəyişdi. Məhkəmə onu zərərçəkmiş kimi tanıdı. Bütün bu olanların hamısını Talıbov Miryusif Fazil oğlunun üstünə atdılar. Hansı ki, o adamı birinci dəfə idi görürdüm və onun bu məsələyə heç bir aidiyyəti yox idi. Amma onu tutdular".

**A.Qırxlarov deyir ki, məhkəmədə saxlanılan şəxsin günahsız olduğunu deyib. Amma hakim fikrini dəyişməyib:** "Məhkəmədə bildirdim ki, məni bu şəxs vurmayıb. O, günahsızdır. Məcburi qaydada günahı üstünə qoydular. Hakim mənim üstümə qışqırdı. Hiss edilirdi ki, ona bunu tapşırıblar və qərarını dəyişən deyil. Məhkəmənin sədri Azər Tağıyev mənə dedi ki, sən nə etsən də mənim çıxardığım qərarı dəyişdirə bilməzsən."

**Şikayətçimin dediklərinə görə, həbs edilən şəxs ona atılan şərə dözməyib və dünyasını dəyişib:** "Miryusif Talıbov ona atılan şərə dözmədi. Aprelin 1-də ürəyi partlayıb və ölüb. Belə haqsızlıq olmaz. O adamın heç bir günahı yox idi. Mənim imkanım olmadığı üçün vəkil tuta bilmədim. Məhkəmə mənə Sevinc adlı vəkil verdi. O da pulsuz deyildi. Bu xidmətə görə ona 250 manat ödəmişəm. Vəkil məni müdafiə etmək əvəzinə məhkəmənin dediklərini təkrar edirdi. Ümumiyyətlə, məhkəmədə mənimlə çox kobud rəftar olunurdu. Zərərçəkmiş tərəf mən olsam da, mənimlə cinayətkar kimi davranırdılar. Yasamal Rayon Məhkəməsinin çıxardığı qərardan narazıyam. Ona görə də apelyasiya şikayəti verdim. Camal Ramazanovun sədrliyi ilə işə baxıldı. Ancaq heç bir irəliləyiş olmadı. Əsl cinayətkar hazırda Türkiyədədir. Ona ölkəni tərk etmək üçün şərait yaradılıb".

**Şikayətçimin tələbi işə yenidən baxılması və ona dəymiş zərərin ödənməsidir:** "Mən II qrup əliləm. Amma indiyə kimi heç bir pensiya və kömək almamışam. Komada olduğum müddətdə də mənə heç bir yardım göstərilməyib. Hamısı öz hesabımıza olub. Ümumi olaraq müalicəm və maşınımın təmiri üçün 90 min manat xərcim çıxıb. Buna görə uzun illərdir ev almaq üçün yığdığım pulları xərcləmişəm. İstəyirəm ki, məni vuran şəxs istintaqa cəlb edilsin".

❑ Məhəmməd TÜRKMƏN

YENİ MÜSAVAT

Son səhifə

N 116 (6144) 30 may 2015



## 2 min dollar bəxşiş

Amerikanın paytaxtı Vaşinqtonda yaşayan kişi dostu ilə restoranda yediyi toyuğu çox bəyəndiyi üçün 2000 min dollar bəxşiş verib. 93 dollarlıq hesabı verən adı açıqlanmayan müştəri restoranın Jeyms Turnerə 1000 dollar, sahibi Xriistofer Nardelli və ofisiant Lura Dalliyə 500 dollar bəxşiş verib. Restoran sahibi X.Nardell müştərinin həm yediyi yeməyi, həm də qurduğu restoranı bəyəndiyini deyib.



## Yaddaş üçün qəribə yenilik

Amerikalı və yaponiyalı alimlər siçanların itən yaddaşını yerinə gətirməyi bacarıblar. Alimlərin kəşfi nəticəsində məlum olub ki, yaddaş itmir və geriyə qaytarmaq mümkündür. Mütəxəssislərin sözlərinə görə, siçanlar mavi işığa qarşı həssasdırlar. Yaddaşı itən siçanların qorxduğu və donma hiss keçirdiyi aşkarlanıb. İllərdir başdan alınan travmaların stress, yaddaşsızlıq kimi xəstəliklərə yol açdığını deyən mütəxəssislər yaddaş itməsinin mümkün olmadığını deyirlər. Çünki yaddaşın itməsi mümkün deyil. Baş verən bütün hadisələr beyində toplanır. Travma nəticəsində isə yalnız beyinin mərkəzinə gedən siqnallar yavaşlaya bilir. Bu da hadisələrin gec xatırlanmasına səbəb olur.

# 100 il yanacağı bitməyən maşın



Amerikada bir şirkət 100 il yanacağı bitmədən çalışan maşın hazırladığını iddia edib. Maşının toryum maddəsi ilə çalışdığı deyilib. Amerikanın Konnektikut əyalətində olan Laser Pover Systems adlı firma toryum maddəsi ilə çalışan maşın haqqında ictimaiyyətə məlumat verib. Qeyri-adi maşın enerjisi ilə çalışan maşının 8 qram toryumla 100 il çalışa biləcəyi deyilir. Enerji qaynağı olan toryum maddəsi Çin, Avstriya, Hindistan və Norveçdə tapılır.

## Pilotdan pizza sürprizi



Amerikada bir təyyarənin pilotu bütün sərnişinləri pizzaya qonaq edib. Filadelfiyadan Atlanta gedən təyyarənin pilotu hava şərtləri pis olduğu üçün Naksvill hava limanına enib. İki saatdan çox təyyarədə qalan sərnişinlər etiraz etməyə başladığı zaman pilot onlara pizza sifariş edib. Pizzalar təyyarəyə xüsusi maşınla gətirilib, pulunu isə pilot ödəyib. Təyyarə 3 saatlıq gecikmədən sonra Atlanta çatıb.

## Pop kralının 100 milyonluq evi



Pop musiqinin kralı Maykl Ceksona aid "Neverlend" adlı məşhur bağ evi 100 milyon dollara satışa çıxarılıb. "Wall Street Journal"ın yaydığı məlumata görə, 2008-ci ildə müğənni malikanəni bir şirkətə satıb. Həmin şirkət isə malikanənin bərpa edilməsi üzrə işləri yeni bitirib və Maykl Ceksonun köhnə evini bazara çıxarıb. Maykl 1987-ci ildə bu evi 5 milyon dollara satın alıb. 2008-ci ildə borclarını ödəməkdə çətinlik çəkən pop-kralı malikanəni satmağa məcbur olub. Normandiya stilində inşa edilmiş bağ evinin ümumi sahəsi 2,7 hektardır. Malikanənin ərazisində böyük park var. Bu parkda attraksionlar, fil və oranqutan kimi heyvanlar da saxlanılır. Malikanəni əfsanəvi çiçək saatı və dəmir yolu xətti bəzəyir. Maykl Cekson bir nağıl adasının şərəfinə malikanəni "Neverlend" adlandırıb. Pop musiqinin kralı burada demək olar ki, 20 ilə yaxın yaşayıb.



## İçki satdığı üçün həbs edildi

Fransada bir barmen müştərisinin ölümünə səbəb olub. Adı açıqlanmayan Prudhomme adlı kişiyə 56 qədəh içki satıb. İçkilərin hamısını içən kişinin dostları ilə birlikdə barda halı pisləşib. Dostları onu evinə aparsalar da özünə gəlməyib. Xəstəxanaya aparıldıqdan sonra həyatını itirib. Müştəriyə həddən çox içki satan barmen polislər tərəfindən nəzarətə götürülüb. Araşdırmalar nəticəsində məlum olub ki, barmen 47 yaşlı kişiyə içki rekordunu göstərərək rekordu yeniləməyə həvəsləndirib. Məhkəməyə çıxarılan barmenə 4 ay azadlıqdan məhrumetmə cəzası verilib. O, 1 il də barmen olaraq çalışa bilməyəcək. Daha sonra məlum olub ki, R.Prudhomme həm içki aludəçisi imiş, həm də nəfəs almaqda çətinlik çəkirmiş.

## Qoroskop




**QOÇ** - Heç nədən narahat olmayın. İradəniz hesabına özünüzü daxilən rahatlayın. Ulduzlar nahardan sonra sevindirici xəbərlər, perspektivli təkliflər alacağınızı bildirir.

**BUĞA** - Neçə gündür ulduzlar əsəbi görkəm aldığınızı bəyan edir. Amma bu gün təxminən saat 12-dən sonra vəziyyət xeyrinizə dəyişəcək. Əsas diqqətinizi məhəbbət amilinə yönəldin.

**ƏKİZLƏR** - Elə hey pulsuzluqdan şikayət edirsiniz. Müşahidələrə görə, bu, heç kimə uğur gətirmir. Deməli, usanmamalı, yalnız əzmkarlığınızı artırmalısınız. Axı indi sizin bürc hakimdir.

**XƏRÇƏNG** - Nahara qədər fəaliyyətlə bağlı bütün öhdəliklərinizi yerinə yetirməyə çalışın. Sonrakı müddətdə isə maraqlı görüşləriniz mümkündür. Bu gün büdcənizdə artım ola bilər.

**ŞİR** - Aktiv gündür. Nə qədər çətin olsa da, ağıllı risk edib öz perspektivlərinizə yaxınlaşa bilərsiniz. İndiki məqamda sizə dəstək verənlər çox olmalıdır. Büdcənizdə artım da gözlənilir.

**QIZ** - Ümumi halsızlığınızı nəzərə alıb ağır fiziki işlərə ara verin. Çünki səhhətinizdə baş qaldıran xoşagəlməzliklər buna imkan verməyəcək. Yeməyinizə və yuxunuza diqqət yetirin.

**TƏRƏZİ** - Ulduzlara inansaq, müəyyən gərginliklərlə üzləşmə ehtimalınız var. Odur ki, ağlınız kəsməyən işlərə girişməməlisiniz. Nahardan sonra şəxsi büdcənizdə artım gözlənilir.

**ƏQRƏB** - Əksər bürclər kimi bu gün sizin bəxtinizdə də varlanma ehtimalı var. Odur ki, bütün gücünüzü bu istiqamətə yönəltməlisiniz. Nüfuzlu adamlarla görüşdən yayınmayın. Səhhətinizi qoruyun.

**OXATAN** - Yersiz lovğalıq, acıdillilik etmək sizə yaraşmır. Hətta belə bir təqvimdə şit zarafatlara da yol verməməlisiniz. Hər bir məsələyə ciddi yanaşın. Sevdiyiniz adamları xoşhal edin.

**OĞLAQ** - Ciddi dönüş astanasındasınız. Hətta elə bir hadisə baş verə bilər ki, şəxsi taleyinizdə təkan olsun. Yaxşı olar ki, xırda məişət problemlərini kənara qoyub bəşəri ideyalar haqda düşünəsiniz.

**SUTÖKƏN** - Yalnız öz mənafelərinizə uyğun addım atın. Kənar məsləhətlərə və riskli işlərə ciddi yanaşmayın. İkitərəfli sövdələşmələrdə təşəbbüsü ələ alsanız, uğurlarınız da artacaq.

**BALIQLAR** - Qarşınızda olduqca uğurlu bir gün durub. Aktivliynizi artırmaqla nəzərdə tutduğunuz mühüm işləri reallaşdıra bilərsiniz. Səbəbsiz məsələlərə görə əsəblərinizi korlamayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Hindistanın ən uzun adamı



Hindistanda yaşayan Darmendra Sing adlı oğlan evlənmək istəyir. Ölkənin ən uzun adamı olan Singin boyunun hündürlüyü 2 metr 20 santimetrdir. Sing istədiyi qadını tapa bilməməkdən şikayət edir. Çünki boyu çox hündür olduğu üçün heç kəs onunla evlənmək istəmir. Singin sözlərinə görə, qadınlar boyu hündür olduğu üçün onunla maraqlansa da evlənmək istəmirlər. Gənc oğlan isə uzun olsa da sağlam olduğunu deyir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300